

Sonuncu Gülləyə Qədər

(Həqiqətə əsaslanan roman)



# Sonuncu Gülləyə Qədər

## (Həqiqətə əsaslanan roman)

İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

The image part with relationship ID rId11 was not found in the file.



İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

# Kitabın adı: Sonuncu Gülləyə Qədər

# (Həqiqətə əsaslanan roman)

**Tərtibatçı: Əbülfəzl Rəbii**

**Çap: 2023**

**E_BOOK**

**Dizayner: Əbülfəzl Rəbii**

# Sonuncu Gülləyə Qədər

**(Həqiqətə əsaslanan roman)**

Yazıçı: Mehdi Şirzadi

ili: 2015

Allahın adı ilə

Sonuncu gülləyə qədər

(Allah hikmət sahibidir)

## Sonuncu Gülləyə Qədər

(Həqiqətə əsaslanan roman)

**Müəllifin sözü:** Allahın adı ilə! Dünən bu romanın sonuncu kəliməsini yazanda, bəlkə də zamanın öz qələmi ilə yazmadığı, sükutla üzərindən keçmiş olduğu böyük hadisələr, dastanlar, rəvayətlər və yurdun tarixi barəsində düşünürdüm.

Bu xalqın mədəniyyətini, kimliyini bütün adət-ənənələri ilə öyrənəndə, bu millətin kimliyini vərəqləyəndə elə yarpaqlara rast gəlirsən ki, dünyanın ən böyük hadisə və rəvayətlərində də belə nümunə tapa bilməzsən…
Ölkəmin taleyi o qədər şirin, qəribə və ağrılı rəvayətlərlə qarışıb ki, bəzən bizim iranlı xalqlarımızdan hansısa birinin şəxsiyyətində görünən bu iri brilyant parçalarını yenidən oxumaq kifayətdir.Fərq etmir. Kitab oxumağa başlayanda Mirzə Kuçek Xan Cəngəlidən tutmuş Əli Delvari, Səttar xan, Baqir xan, kürd cəngavərləri, bəluc kişilərinin dastanları, türkmənlərin qeyrəti və s. görünür.

Hər yazıçının töhfəsi olan girişdən istifadə etmək istəyirəm. Ölkəmizdə kitab az oxunur. Az oxumaq bizə bir çox şeyi araşdırma fürsəti verdi. Bugün şahidi oluruq ki, Sionist və Amerika mediası, Fars körfəzi boyu naməlum ərəb ölkələrinin yaratdığı saxta tarixlər vasitəsilə ölkəmizin gələcək nəsilləri üçün yeni tarixi lent yaratmağa çalışır. İranlıların yeni nəsli bu gün öz nəsil kimliyini yenidən oxumağa ehtiyac duyur və bu şəxsiyyətin yenidən oxunması milli və dini tarix və dastanların öyrənilməsi ilə başlamalıdır. Qələmimin səhvlərini həqiqi sözlər və faktlar ilə örtmək üçün əlimdən gələni etdiyim roman indi

əlinizdədir. Bu roman İran və keçmiş SSRİ ilə sərhəd bölgə olan Culfada, 25 avqust 1941-ci ildə baş verən Sovet İttifaqının İran Azərbaycanının üzərinə qorxaqcasına hücumu zamanı baş vermiş hadisəyə əsaslanır. Bir jandarma çavuşu və iki əsgərin rus təcavüzkarlarına qarşı müqavimət göstərmək qərarı alması nəticəsində İranın şimal-qərb sərhəddində baş verən bu böyük hadisə tarixə yazıldı. Baxmayaraq ki, 1941-ci il dövrünün siyasi tarixinə görə Rza şah İranın bütün şimal və qərb sərhədlərinə teleqram və açıq əmr şəklində sovet ordusu ilə qarşıdurmanın qarşısını praktiki olaraq almışdı, amma tarix İran üç bölgəsində -Azərbaycan, Ərdəbil və Astarada, o cümlədən, Xorasanın şimal bölgəsində, yəni Dərgəz və Bacgiran bölgələrində xalqların məşhur dastanlarına şahidlik etmişdir.

Təəssüflər olsun ki, İranın Qırmızı Ordu tərəfindən işğalı və o dövrdə baş verən siyasi hadisələrdən bəzi hissələri nəql etmək istəyən bəzi iranlı tarixi roman yazarları öz tarixi və tədqiqat işlərini tamamlamaqda tənbəllik göstərərək reallığa uyğun olmayan iddialar və s. yazaraq, rus işğalı zamanı heç bir milli müqavimət göstərilmədiyini iddia etmişdilər. Bəzən hansısa bölgənin yerli tarixinə istinad edilmədən ədalətsiz şəkildə mühakimə edilən bu cansıxıcı əlyazmalarla rastlaşırıq. Lakin bu şərəfli əsgərlərin müqəddəs məzarlarının sərhəd körpüsünün yanında, yəni Qırx Yeddinci Sovet Diviziyasına qarşı qırx səkkiz saatlıq müqavimət göstərdikləri yerdə olması, İranın tarixinin böyük və şərəfli şahididir.

Şikayətimin bütün məntiqi və sənədli səbəbləri igid İran əsgərlərinin müqavimət yeri olan Təbrizə çatmamış, Təlxine çayı boyunca iyirmi bir jandarm əsgərinin şərəfli məzarlarına, eləcə də Sərab şəhərinin girişində şəhid olan otuz ordu əsgərinin şərəfli məzarına baxmayaraq, belə cansıxıcı yazıçıların əsərlərinin mövcudluğudur. Bu isə vətəni, dini və namusu qorumaq üçün qəhrəmanlıq dastanları yazan İran xalqlarının haqqına qarşı açıq-aşkar zülümdür.

Hər halda, tədqiqat zamanı bu hadisənin tarixindən bəhs edən hekayələr, bu girişin çərçivəsindən kənar, başqa bir zaman və məkan tələb edir.

Şəhidlər: Çavuş Müseyib Məhəmmədi, əsgər Abdullah Şəhriyari, əsgər Seyid Məhəmməd Rasi Haşemi. Aparılan araşdırmalar zamanı sadəcə çavuş Müseyib Məhəmmədinin ailəsi ilə əlaqə yarada bildim. İndi bu əziz şəhidin bir oğlu var. Şifahi tarixləri qeyd etmək üçün yaşlı zamanında dəfələrlə əziyyət verdiyimiz və bu tarixi araşdırma prosesinin gedişində bizimlə əməkdaşlıq etdiyi üçün ondan və ailəsindən də halallıq istəyirəm. Bu araşdırma ilə əlaqədar olaraq bir neçə maraqlı mövzuya işarə etmək olar. Onlardan biri də çavuş Müseyib Məhəmmədinin ailəsi ilə tanışlıqdır. Şəhidin oğlu qeyd etdi ki, yetmiş il ərzində onların ailəsinə şəhid ilə əlaqədar olaraq çoxsaylı ziddiyyətli fikir və şayiələr bildirilib. Onlar sırasında onun Sovet qoşunları tərəfindən əsir götürülməsi, orada məcburi əməyə cəlb edilməsi və ya Sibirə sürgün edilməsi barədə iddialar da var idi. Uzun illər sonra, İran İslam Respublikası və Azərbaycan Respublikasının Sərhəd Alayları tərəfindən aparılan geniş tədqiqatlar nəticəsində onun əziz atasının müqəddəs məzarı aşkarlandı.

Körpünün kənarında olan digər iki şəhidin ailəsini isə hər nə qədər çox axtarmış olsam da, onları tapmaq mümkün olmadı.

İstənilən halda, bu əziz şəhidlərin qəriblik və məzlumiyyətlərinin bir hikməti olmalıdır. Tarix bu sirri gələcək nəsillər üçün gizli saxlamışdır. Hekayənin özünün povestlərini sənədləşdirərkən hekayənin forması romanın süjet xəttinə əsaslanırdı. Amma tarixi sənədlər və dəlillər bu qırx səkkiz saatlıq döyüşün hadisələrinin şahidi olmuş şəxsin döyüşün son anlarında sağ qalan Qeytərana işarə edir. Həmçinin, roman qələmə alınarkən baş verən bu tarixi hadisə zamanı sağ olan yerli əhalinin şifahi tarixi məlumatlarına da müraciət edilmişdir.

Sonda, bu mühüm, səmimi və təvazökar tarixi hekayənin tədqiqini başa çatdırmaqda mənə köməklik edən əziz bacım qızı Mina Süleymanifərə və bu

romanın yazılmasında öz tarixi vəzifələrini yerini yetirən təşəkkürümü bildirirərək, lütf və zəhmətlərinə görə qarşılarında təzim edirəm.
Vəssalam! Mehdi Şirazi – 2015-ci il

Gecənin qaranlığında dağların əzəməti və sərgərdan ruhların ah-naləsinin gözəgörünməz fəryadı Araz çayının vahiməli gurultusuna qarışıb, hər hərəkət edən məxluqun şüurunda vahiməli düşüncələr yaradırdı. Araz çayı boyunca zəncvirvari uzanan bu dağların sinəsindən əks olunan çaqqal ulaması və bayquş naləsi, üsyankar dalğaların iblis daş parçaları ilə birləşməsi, İran sərhədinin narahat təbiətini onun şimal qonşusu Sovet İttifaqı ilə zəncirlərlə birləşdirirdi.

Ancaq bu gecə ətraf mühitin qeyri-bərabər səslərindən başqa, çayın o tayındakı yad torpağın qaranlıq qəlbində kələ-kötür meşələrin dərinliklərindən sirli və vahiməli olan başqa bir səs eşidildi.

Dəmir körpünün arxasından hər hərəkətə dəqiq qulaq asmağa adət edən çavuşun qulağına çatan bu səs fərqli idi. Bu səs yaralı və amansız ayının dəhşətli və davamlı nəriltisi kimi getdikcə daha da güclənirdi. Gecənin əvvəlindən eşidilən bu naməlum və qəribə səslər çavuşun zehnində pis fikirlər yaradırdı. Bu keçən qışda olduğundan daha pis idi.

Sərhəd yaxınlığındakı erməni kəndinin əhalisinin qətlindən bir neçə həftə əvvəl, Araz çayının o biri sahilində sərhəd zastavasında ac canavarların kütləvi hücumunu eşitmişdilər. Adamlar deyirdilər ki, əlli quduz canavar var ki, çoxu insan əti yeyir, ağızları köpüklənir, gözləri qızarır və qan çanağına bənzəyir.

Tüklü iri cüssələri, köpüklü ağızları, parlaq qorxulu gözləri, məğrur ayaqlarının şaqqıltısı səsləri ilə meşənin dərinliklərindən sürətlə çıxan əlli cüt adamyeyən canavar onları necə də ovsunlayıblar. Amansız və qaniçən canavarlar. O ac canavarlara qarşı əsgərlər nə etmişdilər?

O əsgərlərinin hər biri bilirdi ki, bu ac canavarlardan biri kəndə çatsa, insanların başına nə gələcək. Əgər bir nəfər yuxudan ayılıb, tüfəngə əl atsaydı, kənddə bir nəfər qadın və uşaq sağ qalmazdı.

Amma bu gecə elə bir sonsuz gecə idi ki, canlı və köçəri bir qorxu şəklində pis və yırtıcı bir ruh kimi, bütün düzənliyi başdan-ayağa bürümüşdü. İtlərin zəhlətökən və vaxtsız ulaması, sərhəd zastavasının tövlələrinə bağlanmış atların kişnəməsi onun bütün varlığını bürümüşdü. Ayının xoruldamasına bənzəyən və getdikcə güclənən bu sirli lənətə gəlmiş uğultu, onun zehnini və iti gözlərini həyəcanlandırırdı.

Gecənin dəhşətli səsi ilə bir-birinə qarışan qaranlıq, gənc jandarmanın zehninin dərinliklərində gizlənmiş naməlum təsviri ortaya çıxarmağa imkan vermirdi. təhlükəni Gözü ilə görüb, zehni ilə anlaya bilmədiyi bu qeyri-müəyyənliyi bütün varlığı ilə hiss edirdi. Bu, onu daha da narahat və daha qətiyyətli edirdi. Amma bu sirrin cavabını tapmaq üçün heç bir təsvir yox idi. Taxta otağından yüksələn hündür bir qüllə. O, gecələr yalnız ayın zəif işığından, canavarların parlaq gözlərindən, uzaq dağlarda dincələn çobanın odunun alovundan, bəzən də qıvrılaraq dağlara enən səslərdən bütün ərazinin mənzərəsini görə bilirdi.

Hissiyyatı onu körpünün yaxınlığındakı böyük təhlükə gözlədiyi barədə xəbərdar etdi. Öz-özünə, gülləri daşıdıqları silah anbarında nə qədər sursat saxladıqlarını düşünürdü.

- Nə qədər müqavimət göstərə bilərik? ...

- Onlar hansı istiqamətdən görünəcəklər? ...

O, bir vəhşi heyvan sürüsü iləmi, yoxsa bir qrup silahlı atlı iləmi qarşılaşacağını bilmirdi. anbaan sərhədin taxta körpüsünə yaxınlaşan düşmən torpağa, namusa həris idilər.

Seyid Məhəmməd və Abdullah şimal qüllələrində dərəni və çayı qoruyan yeganə əsgər idilər. Bu gecə Seyid Məhəmməd nəzarət-buraxılış məntəqəsinin yaxınlığındakı kəndlərdən birində qohumlarından birinin toyuna getmək üçün məzuniyyətdə idi. qarovul vəzifəsini bitirmiş Abdulla, müdhiş gecənin dəhşətli təhlükəsindən xəbərsiz, əsgərlərin nəmli və palçıqlı otağında şirin yuxuya getmişdi.

Çavuş bir neçə dəfə qüllədən aşağı enmiş və sərhəd zastavasının girişinin taxta qapıların cəftəsinin kilidini yoxlamış, Abdullaha baş çəkmiş və onu yuxudan oyatmaq istəməmişdi. Lakin dərin meşənin sirli gücünü əks etdirən digər dağ və çay canlılarının səsi və hərəkətlərindəki nəzərəçarpacaq dəyişiklik, adətən əsgərin, səyyahın və səhrada tək qalan çobanın ağlına gələn hər kabus düşüncəsini ağlından çıxarmamışdı. Onun əsgərləri ilə fərqi jandarma olmasında və artıq bir neçə il Azərbaycanın başı ərşə ucalan dağlarında xidmət etməsi ilə, tənhalığın zirvəsində qorxunu düşünməməsində idi.

Ordunun bir çox zabitləri və yoldaşlarının diqqətini özünə cəlb edən qoz ağacından hazırlanan taxta qundaqlı, qırmızı rəngli, dəri qayışında şir və günəş simvolu əks olunan gözəl Borno tüfəngi hər biri öz vilayətinin ən mahir atıcısı olan 300 nəfər adlı-sanlı kürd, lor və bəluç əsgərlər arasında keçirilən atıcılıq yarışında birinci yeri tutması səbəbindən Azərbaycan Jandarma Alayının komandiri tərəfindən ona hədiyyə edilmişdi. Bir çox tapşırıqlarda o, yaxşı çavuş və etibarlı bir yoldaş idi. Onun çiynindən asılmış olan bu tüfəng sərhədsiz Muğan düzənliyində bir güllə ilə hər düşmənin və yırtıcının nəfəsini kəsirdi. Təbii ki, bütün bunlar yaraşıqlı və zərif Borno tüfənginə sahib cəsur və fərasətli bir çavuşun ləyaqətinin əlaməti idi.

Təbriz bazarı bütün tarixi küçə və  döngələri, söhbətcil, zövqlü və səliqəli müştəriləri, bazar darvazanın astanasından başlayan və okean kimi dalğalanan insanları, sahil mirvariləri kimi ecazkar gözəlliyə malik olan xalıları, ipəkləri, dulus və mis əl işləri ilə hamını mat-mətəl qoyurdu.



Bu bazar bütün naz və işvəsi ilə Çin, Hindistan, Osmanlı, Badkubə və Türkman tacirlərinə işgüzar ədəb və iş etiketini canlı bir məktəb kimi öyrədirdi. Bir adla da tanınırdı ki, o da siyasi bazar idi. Hacı Mirzə Sadiqin sözü sikkə deyildi ki, onu zərb edələr. Hacı Mirzənin kəlamları çox dəyərli idi.

Onun hərarəti inadkar və sözdən anlamaz bir qəlbi də yandırırdı. Rus tüfəngindən atılan güllədən daha çox yandırırdı. Onun sözlərinin hökmü əxlaq və paklıq iksiri olsaydı, mirvarid qətrəsi kimi müridlərinin qəlblərinə düşər və dürrə çevirilərdi. Namərd Rza şah ilə mübarizə apardığı üçün qaçaq adı ilə məşhur olan və mübarizcəsinə canlarını fəda edən Nəbi pəhlivan və qırx əsgəri kimi.

Uzun müddət Rusiya və İngiltərənin söhbət və hekayələri, bu iki əcnəbinin hərbi hücumu ehtimalı xalqın ağzında dolaşmaqda idi. Təbii ki, bu sirlər divara söykənmiş siçan kimi İngiltərəyə arxalanan nazir tərəfindən bilərəkdən xalqın arasında yayılmışdı. Amma bu zahirən mehriban, lakin gürzə kimi dövlətlərin yaxınlığı min bir hekayədir ki, mənası da mən İran şahını Almaniya hökumətini dəstəklədiyinə görə cəzalandırmağa çalışıram deməkdir. Hücum edəcəkləri hələ müəyyən deyil.




Bazarın və üləma evinin hərəkətləri, Təbrizin nizamiyəsi və şahın xəbərçiləri qeyri-adi vəziyyətdən xəbər verirdi. Qorxu ondan ibarət idi ki, bu ziyarətgahın sonu zülmlə bitəcək və söz-söhbətlər gerçəkləşəcək. Bu günlərdə valilik binası da tacir və kəndlilərlə dolu idi.

Xan və Xanzadələr ölkənin ən son xəbərlərini almaq üçün hər yerə baş çəkirdilər. Müharibə mövzusu və İranın hansı hökuməti dəstəkləməkdə rolunun necə olması… Bu, savadlı və savadsızların mübarizəsi idi. Sanki hər kəs özünə dərs kürsüsü və minbər qurmuşdu. Sanki neçə illik təcrübəyə malik idi. Amma hamı bilirdi ki, vacib olan valilik binasının qərar zalından gələcək xəbərlərdir. Uzun müddət idi ki, Tehrandan gözlənilən teleqram gəlmirdi. Bütün ordu komandirləri, məmurlar və siyasətçilərin qulağı Rza şahda idi. Narahat və təşviş içində Telegram otağından Telegram xəbərlərini soruşurlar və bir neçə gündür eşitdikləri xəbər isə belədir: “

- Tehrandan heç bir cavab almayıblar...”

Cənab, bu belə deyil. Ölkənin şahı var. Sahibi var. Bu cənablara xatırlatmaq lazımdır ki, biz sizin Təbrizdəki nümayəndələriniz. Sonuncu tapşırığınız nədir? Sərhədlərdən günü-gündən xoşagəlməz xəbərləri duyulan rus xalqı Allahdan xəbərsizdir. Bir tərəfdən nə Həzrət Abbas andına, nə də

xoruzunun quyruğuna inana bilməyən bu məkrli ingilisə nəsə etməlidir... Şəhərdə xaos hökm sürür.

Bu, ordunun Təbrizdəki nümayəndəsi Mirzə Təqi Həşmət əd-Dövlənin valilik binasının güzgü zalında mərasim masası arxasından məmurlara xitabən dediyi sözləri idi. Maliyyə işləri rəisi, taxıl və ərzaq anbarının rəisi, hərbi işlər rəisi, valinin mədəniyyət üzrə rəisi və Təbriz məhəllələrinin ağsaqqallarının hamısı heybətli bığları ilə narahatlıq və qorxu və əndişə ilə gözləyirdilər ki, görək sonda nə olacaq?!

Cənab Heşmət, mən şəxsən sizin ağır vəziyyətinizdən narahatam. Sağ olun, amma sarayın qərarına tabe olmalıyıq. Mən də sizinlə razıyam ki, özümüzdən başqa heç kim bizə can yandırmayacaq.

Vali öz müdrikliyi və şöhrəti ilə harada nə deyəcəyini bilən təcrübəli bir siyasətçi idi. Bu dəfə də o, zaldakı başını itirmiş qonaqlarının fikirlərinin tutub onları sakitləşməyə dəvət edirdi.

Yığıncaqlar adətən bir neçə aydan bir valilik binasında keçirilirdi. Amma son vaxtlar ölkədə baş verən narahatedici hadisələrə görə bu danışıqların və toplantıların saatları artıb. Amma hər dəfə konkret nəticə alınmırdı. Şahın Rusiya və İngiltərə hökumətlərinə qarşı çıxması ilə bağlı çoxlu şayiələr gəzirdi. Bacgiran və Dərgəzdə sərhəd kəndlərinin ruslar tərəfindən talan və qarət edilməsi xəbərləri eşidilirdi. Cənubdan xəbər gəlirdi ki, Britaniya gəmiləri bir-bir Fars körfəzini doldururlar.

Xalq ordunun və jandarmanın süstlüyü və laqeydliyindən cana gəlmişdi. Onlar Britaniyanın mümkün hücumuna mübarizə aparmaq üçün özləri səngərlərə axışırdılar. Badkubədən xəbər gəldi ki,Sovet ordusunun Qırx yeddinci diviziyası Araz çayı istiqamətində hərəkət etməkdədirlər. Bu xanın, xalqın, alim və siyasətçinin ürəyini ağrıdan və onları narahat edən bir xəbər idi. Seyid Rza Əttarçi Təbriz ağsaqqallarından və Qafqazın adlı - sanlı tacirlərindən biri idi. Bu xeyriyəçi insan Lənkəranda, Qəzvində, Tehranda yetimlərə və kimsəsizlərə əl tuturdu.

Xalqın ona belə ehtiram göstərməsinin səbəbi, təkcə olun Seyid və el ağsaqqalı olması və sahib olduğu var-dövlətinə görə deyil, həmçinin onun şəriət və fiqh elmlərində müctehid dərəcəsinə yüksəlməsi, həmçinin, Mirzə Sadiq ağa Təbrizi və hər dəfə ticarət etmək üçün İraqa səfər edərkən qazandığı bütün sərvətini Nəcəf şahına borclu olduğunu deyən qızıl kəlamlı Ağa Seyid Əli Qazinin tələbəsi olması səbəbindən idi. Allahın adı ilə!

Cənablar, əgər uyğun hesab edirsinizsə, Hacı Mirzə Sadiqin fikrini də öyrənək. Onun dövlət mənzili İrandakı siyasi vəziyyəti təhlil etmək üçün Nəcəf alimlərindən alınan ərizələrlə müşərrəf olub. Təbii ki, cənab mer bu gün qərara almışdılar ki, biz hökumət evindən iclas keçirək və ustada xidmət etməyə hazır olduğumuzu bildirək. Amma çox təəssüf ki, onlar üçün bir zərurət yarandı və alimlərdən birinin səfəri ilə əlaqədar Təbriz yaxınlığındakı qəsəbələrdən birinə getdilər.

Təbrizin yay gecələri baharın sərinliyində qızdırmadan, yanaqları çiçək açmış kimi idi. Onun qəribə mayası var idi. Soyuq və ılıq olan içməli su kimi. Koridorların sayrışan neft lampaları, evlərin közərmə işıqları ilə şəhər öz dünyasının gündəlik və həyəcanlı mübarizəsindən yorulmuş uşaq kimi köhnə dağın yamyaşıl ətəyində özünü göstərməkdə idi. O, sanki taleyin qərar verəcəyi sabahlardan xəbərsiz, ay işığının nəvazişində yatmış idi.

Müctəhidlər məhəlləsi, bəlkə də adı qədər qədimdir. Bura Təbrizin bütün məhəllələri arasında ən sevimli yerlərdən biri idi. Məşhur alim və müctəhidlərdən bir dünya söz və xatirəsi olan bu məhəllədə, Mirzənin köhnə evi də var idi. Təbrizin divarları palçıq samanlarından tikilən hər evinin kənarında budaqları bir-birinə qarışmış tut və qarağac tingləri görülürdü. Bu hər evin rahat həyətləri olan gözəl bağçalarından xəbər verirdi. Bu obraza, tarixə və təsvirə malik olan çox sakit və ləyaqətli bir sükut idi.

Vali çıxışının ortasında içəridəki taxta qapı açıldı və yaşlı kişi üzərində Şah Abbasın təsviri olan sinidə qadın zövqü və səliqə ilə düzülmüş dolu fincanlarla içəri daxil olaraq, qonağın sözünü bitirməsini və Hacı Mirzənin işarə

etməsini gözləyirdi ki, çayları paylasın. - Nəcəf alimlərinin rəyi bütün hallarda İslam vilayətini qoruyub saxlamaqdır. Amma bütün bu hadisələrin səbəbi isə, ordunu və jandarmanı bilərəkdən zəif və qabiliyyətsiz olaraq göstərmək istəməkləridir.

Xalq məmləkətin işlərindən xəbərdardır və nə etmək lazım olduğunu dərk edirlər. Mən və silahdaşlarımın dərdi rus və ingilis əcnəbilərlə mübarizəyə diqqətin aşağı səviyyədə olmasıdır. Əgər padşah bu suala qəti cavab verməyə cəsarət etsə, işin öhdəsindən gələcək. Yoxsulluq və qıtlıq səbəbindən xalqın Rusiya və Britaniya siyasətinə heç bir inamı yoxdur. Bizim dərdimiz başçısı olmayan və boş olan sarayın dərdidir. Hacı Mirzə Sadiq, siz düz deyirsiniz. Bu insanlar imtahanları həmişə iftixarla veriblər. Osmanlı istilasından və Çaldıran müharibəsindən tutmuş, yadellilərin işğalına qədər. Amma yaramaz və məkrli çaqqal olan rusların və ingilislərin hekayəsi tamamilə başqadır. Onlar bu xalqın torpağına, namusuna hərisdirlər... Zəmanə pisləşib ağa! Məhz nəzmiyə rəisinin sözləri arasında həyətin qapısının taqqılbabının səsi eşidildi. Söhbət davam edirdi. Məşhədi Hüseyn Əli Xadəmin hesabınca Ağa Mirzə Sadiq Əli əl-Qaidənin evinə heç kim gəlməməli idi. Qonaq otağı dağınıq idi. Söhbətdən sonra salavat səsləri ardınca bəzən sükut hakim kəsilirdi. Məşhədi hüseyn Əli qapını açanda geyimi təbrizlilərə bənzəməyən, orta boylu, orta boylu bir kişi ilə rastlaşdı.

Onun dəri çarıqları bahalı və nişanlı idi. Mən Hacı Məhəmməd Lənkərani tərəfindən göndərilmişəm. Ağa üçün məxfi bir məktubum var. Tələsirəm. İpək parçadan olan köynəyinin üst cibindən əzilmiş məktubu çıxrarkən sözlərinə davam etdi: “ Xahiş edirəm ki, bu məktubu ağaya verin. Hacı Məhəmməd ağa məktubun ağaya çatmasına dəfələrlə təkid etdi. Lənkərandan Təbrizə qədər bütün yollar təhlükəli idi.

Maddə 1: İran ölkəsi siyasi işləri asanlaşdırmaq üçün əyalətlərə və vilayalətlərə bölünür.

Maddə 2: Əyalət mərkəzi hökuməti və hakim vilayəti olan ölkənin bir hissəsidir. Hazırda beş vilayətlə məhdudlaşır: Azərbaycan, Kirman, Bəlucistan, Fars və Xorasan.

Ağa, Qacar dövründən bəri qanun belədir ki, əyalətlər ölkənin bir hissəsi hesab olunur.  Xüsusən də Azərbaycan Sovet İttifaqına və Osmanlı İmperiyasına yaxınlığı baxımından daha çox əhəmiyyət kəsb edir.

Təbrizli Hacı Bayram Təbrizin ən qədim və ən hörmətli katiblərindən və tarixçilərindən biri idi. Davam edərkən içəri qapı açıldı və Hüseyn Əli əlində ipək parçaya bükülmüş kağız parçası ilə otağa daxil oldu. Narahat və düşüncəli baxışlarla hamının diqqəti onun otağa vaxtsız daxil olmasına və əlindəki kağıza yönəldi. Məşhədi Hüseyn Əli Hacı Bayram çıxışını tamamladı və dərhal Hüseyn Əlidən soruşdu. “Xeyirdir inşallah? Bir xəbər var???”

Hüseyn Əli sakitcə məktubu Mirzənin qabağına qoydu:

-Ağa məktubun sahibi narahat halda gəlmişdi. O, atını çaparaq Lənkərana qayıtdı.  Məktub Hacı Məhəmməd Lənkəraninin adındandır. Salamlaşıb məktubu verdi və dedi: “Mən bu məktubu yolda dayanmadan Lənkərandan Təbrizə çatdırdım ki, ağa gərək bu axşam xəbərdar olsun.

**Mehriban və bağışlayan Allahın adı ilə**

Hacı Mirzə Sadiq ağa Təbrizi uca Allahın dərgahına həmdü-səna etdikdən sonra, o böyük ustadın xidmətinə yetəcəyəm. Rus ordusu zirək və döyüşkən Sergey Terfimenkonun komandanlığı ilə qırx yeddinci diviziyasını İran sərhəddi boyunca yerləşdirdi. Qalan iki diviziyanı isə qırx yeddinci rus diviziyası ilə birlikdə Astara və Xorasan istiqamətinə göndərdi.

Cəfər adlı qaniçən İslam vilayətinin ərazisinə əcnəbinin girməsindən narahatlıq və qorxu duyaraq, kommunizm yolunu tərk edib, dua edərək Sahib-əz-Zamandan müsəlmanların şərəf və ləyaqətini qorumasını istəmişdir. Məlumat və hazırlıq üçün Biləsuvar və Muğan tayfalarına da bir neçə məktub göndərdik. Bacardığımız qədər xidmət etməyə hazırıq.

Çapara tapşırdım ki, dayanmadan Arasbaranın keçilməz dağlarını gizli yollarla keçərək özünü İrana çatdırsın ki, rusun ayağı İrana çatmamış bir plan fikirləşəsiniz. Allah bütün müsəlmanların köməyi və qoruyucusu olsun. Əssəlamu Əleykum və rəhmətullah!

Yeni xəbər deyildi.

Hər şey gözlənildiyi kimi idi. Təəssüf ki, mərkəzi hakimiyyətinin zəifliyi, ordu və jandarmanın səlahiyyəti ilə şahın öz boş nağarasını döyməsi ürəklərdə olan gizli bir qorxu idi. Məktubun oxunmasından sonra Hacı Mirzə Sadiq Ağanın evinin qonaq otağının ağır sükutunda qorxu daha da rəngarəng görünürdü. Sanki heç kim bu dəhşətli kövrək sükutu həmişəlik pozmaq istəmirdi və şübhəsiz ki, orada olanların şüurları Təbrizin ruslar tərəfindən məşrutə işğalı zamanı işğal tarixindən və insanların qətliam ediləcəyindən xəbərdar idi. (Razıyam ki, məni Sibirdə çomaqla daş qırmağa göndərsinlər, amma rus bayrağı bu məmləkətdə dalğalanmasın.)

Bu söz Siqətul-İslam Mirzə Əli ağanın məşhur kəlamı idi ki, Hacı Mirzə təkrarən səsləndirirdi. Bu söz o qədər hərarətlə, qətiyyətlə deyildi ki, sanki məşrutə qiyamındakı kimi o böyük insanın igidlik və şücaəti orada olanların hamısının ruhunu və düşüncəsini oyandırdı. Rus suveren nazirini köhnə dünyanın fəryadları qarşısında diz çökdürən müqəddəs cəsarət, sətir-sətir Təbriz məşrutə qiyamının hekayəsi və qırmızı güllələrə təslim olan sinələr elə bir dastan yaratdılar ki, bu gün həmin aylı yay gecəsində Hacı Mirzə Sadiq Təbrizinin evində iştirak edən qonaqlar vətənpərvərlik sınağında Stalin qüvvələri ilə üz-üzə gəlmək iradələrini bir daha sınadırlar.

Gec-tez bu baş verəcəkdi. Ruslar və ingilislər Rza xanın zəifliyindən xəbərdar idilər. Nə vaxt istəsələr, onu Kədxuda etdilər, nə vaxt istəsələr də onu dəyərsiz bir adam kimi qoyub gedirdilər. Həqiqət belədir. Bu millətin zülmü məmləkətin şahıdır. Xalq bu vətənxainlərinin tapdağı altındadır. Allah bilir bu aclıqda, müharibədə bu insanların aqibəti necə olacaq. Hacı Mirzənin səsinin

əks-sədası taxta qapıdan içəri keçdi. Evin mətbəxində söhbətu dinləyən qadınlar isə həyəcan və sükutla oturmuşdular.

Hər səhər olduğu kimi dağın arxasında qırmızı günəşin doğuşu, uca dağ silsiləsi ilə əhatə olunmuş əlçatmaz qala kimi dayanan qızarmış çıraq kimi şəhəri işıqlandırırdı. Bu şəhərdə yaşamaq lazımdır ki, müəllifin hekayəsinin şirinlik duyğusunu dərk edəsən. O zaman həqiqətən də Təbrizin İslam dünyasının firuzəsi olduğunun şahidi olacaqsan.

Gün başlamışdı. İki atlı arabaların səsi, küçələrdən keçən piyadaların hərəkəti şəhərin canlılığını daha da artırırdı. Yolda böyük qəza baş vermişdi. Bu uğursuz proqnoz, ordunun parçalanmasının qarşısını almaq üçün bəzi komandirlərin qaçması, bəzilərinin isə cəsarətli hərəkətlər edərək Rza şah və onun qaçaq tərəfdarlarına qarşı mitinqlər keçirməsi və əsgərləri kazarmalara qaytarmaq barədə yalan və saxta xəbərə əsaslanırdı.

Amma düşmənin beşinci sütununun qüvvələrinin terror yaratmaq xəbərinin qorxusu və xaosunun qarşısını almaq və xalqı sakitliyə dəvət etmək üçün bu xəbərlərin inkar edilməsi labüd idi. Xalqın yeganə güvən yeri valilik binasının zalı və üləma minbərinin, xüsusilə Şeyx Sadiq Təbrizi ağanın xəbərləri idi. Havada aclıq və talan qoxusu hiss olunurdu. Şəhər əhalisinin hökümət ordusuna qarşı qırx günlük müqaviməti, zülmlərin acı xatirələri tarixə əbədi olaraq qeyd olunmuş və qalmışdır.

Ağa şəhrdar! Ağa şəhrdar!

Bu, teleqram otağına cavabdeh olan şəxsin qırtlağına hopmuş narahat və qorxu dolu bir səs idi. O, əlində olan bir kağız parçası ilə Təbriz Valiliyi binasında valinin otağına tərəf qaçırdı. Valinin otağı ondan icazə alınmadan açıldı.

- Ağa şəhrdar! Tehrandan pis xəbərlər gəlib... Sarayın qərarı gəlib cənab!

O, sursat anbarının taxta qapısını açıb, qapının yanındakı çardaqda kibritlə qara neft lampasını yandırdı. O otağın mütləq qaranlığındaki zəif işıq sanki ay

işığı kimi idi. Anbar avadanlıqlarını uzaqdan təmiz və səliqəli olduğu gözə çarpırdı. Hərbi hesablama ilə o, sursat qutularının içərisində olanların son istifadə tarixini təxmin etdi.

Anbar Borno tüfənginin patron qutuları ilə dolu idi. Qutular anbarın qapısından başlayaraq otağın sonuna qədər xüsusi qaydada düzülürdü. Bir az irəlidə M1 və Borno tüfənglərinin sırası və bir rus pulemyotunun qundağı gözə çarpırdı. Çavuş bilirdi ki, bir hərbçi böhran vəziyyətində kifayət qədər sursata sahib olduğu üçün çox da sevinməməlidir. Əsas məharət döyüş texnikası, qüvvələrin sayı deyil, düşmənə qarşı vəziyyəti dəyişdirə bilmək cəsarəti olduğu üçün hesablanmış döyüş üçün heç bir məntiqi hesablama apara bilməzdi. Gecə bu düşüncələrə dalarkən, atlı süvarilərin səsi və yorğun atların töyşüyən nəfəsləri aydın duyulurdu. O, uzun bir yol qət etmişdi. Sərhəd məntəqəsindən kənarda duyulan bu səslər çavuşu fikirdən ayıltdı.

Çavuş Məhəmmədi... Çavuş Məhəmmədi...!

Bu süvarinin səsi çavuşa tanış gəlirdi. Özünü həyətin darvazasının önünə çatdırdı. Pərişan halda yuxudan oyanan Abdullah qorxaraq qapıya tərəf tələsdi. O, qapını açdıqda Qeytəran atı ilə birlikdə sərhəd məntəqəsinə daxil oldu. Onların hər ikisi nəzarət-buraxılış məntəqəsi binasının arxasındakı qaranlıqdan onlara tərəf gələn çavuşun ayaq səslərinə qulaq verirdi.

- Çavuş yaxınlaşıb dedi: “Nə baş verir Qeytəran? Nə hay-küy salmısan?”
- Qeytəran: “Salam çavuş. Şüca kəndindən buraya qədər dayanmadan at çapmışam. Yol boyu bir neçə yerdə arxamca qaraltıların gəldiyini hiss edirdim. Bir neçə yerdə dayanıb sağı-solu yoxladım. Heç kim yox idi. Amma sərhəd məntəqəsinə çatmamış, gədiyin yaxınlığında yenə də həmin kölgələri gördüm. Ürəyimdə bir sıxıntı var çavuş...Bu dağlarda nə baş verir?

Qaytaran həmin sərhəd məntəqəsinin uzun illər orada xidmət edən köhnə jandarmalarından biri idi. O, bütün bölgəni beş barmağı kimi tanıyırdı. Sərhədin dağlarına, dərələrinə gedən dağ-dərələrə çox yaxşı bələd idi.

Çox qəribə bir gecədir. Canavar qoxusu gəlir, çavuş...Leş iyi gəlir. Yolun əvvəlindən duyulan qorxu hissi bütün dağı bürümüşdü.

Keçən ilin dişi canavarları yadıma düşdü. Darvazanın qapısını bağlayan Abdullah dedi: “Necə də pis bir gecə idi.”

Qardaş, mən hələ də canavarın ayağınızı tutduğu anı indiki kimi xatırlayıram.

Gəzərkən Qeytəranın ayağının axsadığı elə də çox gözə çarpmırdı. Amma gecələr onun ayaqlarını vaxtlı-vaxtsız olaraq ağrıdan canavar hücumunun bu acı mirası əbədi olaraq qalacaqdı. Aqilə cəsarətli bir adam idi və adətən bölgənin bütün insanları ilə yaxşı münasibəti var idi. Uzun müddət idi ki, Qeytəran çavuşu tanıyırdı. Bilirdi ki, çavuş Müseyib Məhammədi nədənsə narahat olanda, o məsələni çox götür-qoy edib bir nəticəyə gəlməyincə, dilinə gətirməzdi.

O, dəfələrlə öz-özünə düşünüb, məsələni ölçüb-biçib, götür-qoy edib və nəhayət heç bir nəticəyə gələ bilmədən, bu gecə nəsə bir hadisə baş verəcəyini hiss edirdi.

Qeytəran dedi: “Müseyib sən də hiss edirsənmi ki, bu gecə nəsə bir şey olacaq? ... Doğrudan. Bu gecə sərhəd qüllələrinə kim cavabdehdir?

Çavuş Qeytəranın sözlərinə məhəl qoymadan, sanki zehnində axtarış aparan adam kimi soruşdu:

Qeytəran! Sursat anbarının içərisindəki rus pulemyotunu qüllənin üstündə yerləşdirmək istəyirik. Nə qədər vaxt lazımdır?

Abdullahla Qeytəran mat – məəttəl çavuşun üzünə baxırdılar. Sanki çavuşdan dəhşətli bir xəbər eşidəcəkdilər...

Onlar soruşdular: “Niyə pulemyotu qüllənin üstünə qoymaq istəyirsən?”

Sərhəd məntəqəsinə bir neçə istiqamətdən hücum ediləcəksə, orada bir pulemyotumuz olmalıdır ki, çətin anlarda döyüş şəraitini xeyrimizə dəyişə bilək. Biz qarşımızdakı dərələri, dağları dəqiq atəşə tutmağı bacarmalıyıq.

Yaxşı, Bu Allahdan bixəbər olan bu adamların kim olmasından asılıdır ki, zastavanı tutmaq kimin ağlına gəlib? Qaçaqçıların, yoxsa rus ordusunun?

Əgər qaçaqçı olsa pulemyota ehtiyacımız yoxdur. Çünki, bir neçə fərsəngdən tutmuş Muğan və Astara düzənliyinə qədər hər bir üsyançı bilir ki, çavuş Məhəmmədinin tüfəngi hədəfi tam dəqiq vurur. Ov tüfəngi ilə sikkəni havada vurur. O ki, qaldı insanı vurmağı.

Amma əgər Allah eləməsin, Liyaxovun ordusu hücuma keçsə... Və sanki ağlına bir şey gəldi ...

- O, gözlərini çavuşun üzünə zilləyib dedi: "Əgər rusdursa, uzaqdan atəş açmaz çavuş!

- Əgər rusdursa, əraziyə daxil olana qədər əl çəkməyəcək.

- Yəni mənim düşündüyüm fikir sənin də ağlından keçir?

- Nə fikirləşirsən çavuş?

Abdullah bunu deyəndə udqunub daha da təlaşla soruşdu:

- Nə olub, cənablar?

-Bəli .... Rus ordusu gəlsə, körpüdən keçməlidir və bütün hallarda ilk növbədə körpünü işğal etməlidir. Sonrasını da siz düşünün…

Düzdür, çavuş ... amma bu sözlər və düşüncələr nədir ?!

- Nəsə hiss etdin?

Badkubədən xəbər varmı?

Gəlirlər...

Heç bir yerdən xəbər eşitməmişəm. Mən öz gözlərimlə gördüm...

Onlar qırx T-35 tankı, on beş pulemyot və üç yüzdən çox əsgərlə gəlirlər.

Əslində, valinin alnından tər axıtmasına, yanaqlarının qızarmasına və daha parlaq görülməsinə səbəb olan şey otağın havasının isti olması deyildi.

Məxfiliyini itirdikdən sonra saraydan alınan teleqramın məzmunu salonda olan bir çox qonaq və məşhur şəxslərin əhvalını pozmuşdu. İstər son ana qədər Tehranda sarayın və ordu rəhbərlərinin təəssübünü verməyənlər, istərsə də, Mirzə ağanın sözlərinə inanlar məyus olmuşdular.



Teleqramın mətni belə idi:

"Əlahəzrət şahın Rza Şah Pəhləvi sarayınınn ali fərmanına əsasən, İran dövlətinin məxfi idarələrinin başçıları olan Təbriz valisi, Təbriz Ordu Komandanı və Təbriz Sərhəd Jandarmasının komandanına!

Rusiyanın 47-ci diviziyasının İran sərhəddini keçmək icazəsi var və əyalətləri keçərək nəzərdə tutulan hədəflərə çata bilir.

Odur ki, rus ordusuna qarşı istənilən müqavimət və maneə İran şahının açıq-aşkar əmrinə ziddir və ağır və şiddətli cəzanı ehtiva edir.

Vəssəlam!

İran Şahənşahının Sarayı!

İclasın ağır sükutunu valinin boğuq səsi pozdu. Cənablar, bu, İran şahının birbaşa fərmanıdır. Rus ordusu heç bir kəsin maneəsi olmadan istədiyi yerə qədər irəliləməlidir...

- Bu nə deməkdir, cənab???

- Zalda olan qonaqlardan biri hirslə bunu dedi və sözlərinə davam etdi:

-Bu o deməkdir ki, Allahdan xəbərsiz olan ruslar bizim heç bir müqavimətimiz olmadan, malımızın, canımızın, namusumuzun sahibinin olacaqlar?

Sarayın tərəfdarı olan Təminat rəisi dedi: "- Kim zəmanət verə bilər ki, onlar heç bir təqib, qətl, talan və təcavüz etmədən əyalətlərimizdən keçəcəklər ? ...

- İkincisi, Rusiyanın Təbrizə ilk hücumunun faciəli hadisələrini və sərxoş rus əsgərlərinin cinayətlərini unuda bilərikmi???

Bu qeyri-məntiqidir cənab vali!

Zalda iştirak edənlərin bu fikirlərlə razılığı ilə valilik binasının zalını səs-küy bürüdü. İclasda iştirak edənlərin hamısı bir növ sarayın teleqramına öz etirazlarını bildirməkdə idilər.

Zalda olanların söylədiyi böyük sözlərin kontekstində padşahın açıq əmrinə qarşı kobudluqla qarışıq cəsarət və itaətkarlığın qoxusu duyulurdu.

Vali sanki bir qərar vermiş kimi susurdu. Birdən oturduğu yerdən qalxdı və iclasın xaosuna son qoya biləcək yüksək bir səs tonu ilə qonaqlara müraciət etdi:

Şəhərin sərxoş və axmaq rus əsgərlərinin əlinə keçməsinə icazə verə bilmərəm. İşğalçılardan az əziyyət çəkməmişik. Birinci dünya müharibəsində sərhədlərdən başlamış Təbriz şəhərinə qədər mücahidlərin və vətənpərvərlərin qanı töküldü.

Vali qəzəblə sarayın teleqram mətnini cıraraq dedi:

- "Rusların xüsusiyyətləri canavar xislətli və yırtıcıdır. Kim mənimlə rus ordusuna qarşı müqavimətə hazırlaşmağa razıdırsa, ayağa qalxsın lütfən..."

Salondakı insanların təkrarlanan salavatlarla qarışıq coşğulu səsləri bu heyətin hamılıqla valinin sözləri ilə razı olduğunu göstərirdi. Valinin boğazında yığışan hıçqırıq dolu boğuq səslə hamını yadelli işğalçılara qarşı çıxmağa çağırdığı o saf anların hekayəsi əbədi olaraq tarixin səhifələrində qalacaq. Həyətdən axan su kimi yazıçı zaman-zaman bu xalqın böyük tarixinə yeni və dərin rol, istiqamət verir.

Körpünün yaxın ətrafındakı dağların və qayaların yüksəklikləri dağ döyüşləri üçün o qədər də uyğun deyildi. Ancaq oralar, gizlənmək, yenidən nişan almaq və yenidən atəş açmaq üçün yaxşı bir yer ola bilərdi. İran və Rusiya arasındakı sərhəd xətti və ya mavi sərhəd xətti çox namərdcəsinə bölünmüşdü. Bu, şərq blokunun öz nəcib və ləyaqətli qonşusu olan İrana etdiyi ilk və sonuncu zülm deyildi. Hekayə daha fərqli idi.

Bu ədalətsiz bölgüdə itirilməməli olan yeganə şey iki ölkə arasında mövcud olan rabitə yolu idi.  Yəni şimalın acgöz canavarının illərdir ki, baxdığı sərhədin dəmir körpüsü idi. İranın məğrur dağlarının ram əjdahası olan Araz çayı gecələr sərhədi keçmək istəyən heç bir təcavüzkarın qəlbində yandırılan alov kimi dərin iz buraxırdı.

Çavuş nümunəvi bir cəsarətlə gecənin qaranlığında sərhədin o tayındakı meşənin dərinliklərinə keçərək qorxulu səsin əsas mənbəyini müəyyən etməyə çalışırdı. Səslərə yaxınlaşdıqca təxmin etdikləri barədə fikirləri daha da dəqiqləşirdi.

Çavuş bütün mexanikləşdirilmiş hərbi texnikanın və əsgərlərin İran sərhədinə doğru irəlilədiyini gördü. O indi əmin idi ki, bu düşmən qüvvələrinin gözlənilməz hücum ilə körpünü ələ keçirmək və zastavaya doğru irəliləyərək, İranın ilk hərbi kazarmasını ələ keçirmək planı üzrə sürətli hərəkətidir. Bu isə o deməkdir ki, mənfur düşmən vətənimizi işğal etmək niyyətindədir. Təbriz Jandarma Komandanlığının Rusiyanın hücumu ehtimalına qarşı sərhədlərin hərbi baxımdan hazır olmaları ilə bağlı hər hansı bir siyasi xəbər yox idi.

Çavuşun zehnində tezliklə baş verəcək hadisələr və rus ordusunun sərhəd məntəqəsindən keçib getməsindən sonra şəhər və qəsəbələrdə törədəcəkləri vəhşilik və fəlakətlər barəsində düşünürdü. Tamamilə naməlum olan bir cəsarət hissi onun bütün varlığını canlandırırdı. Bu qeyri-adi hiss onu ölüm və alovlu güllə yarasının qorxusundan amanda saxlayırdı.

Bu qəribə seçim onu öz həyatından keçməsi həddinə çatdırmışdı. Əgər köməkçi qüvvə bir neçə saatdan sonra gəlsəydi, özünün misilsiz snayper atıcılıq qabiliyyətinə malik olması ilə yanaşı, əsgərlik xidmətinə başlayıb, bu sərhəd məntəqəsinə gələndən etibarən atıcılıq öyrətdiyi üç-dörd məharətli əsgərlə birlikdə nə qədər müqavimət göstərə bilərdilər?

Sursat qutusunun hər gülləsinin və sursat anbarında olan pulemyot lentlərinin sayını hesablayırdı. Əgər birdən kömək gec gəlsə, ya da heç gəlməsə…

Çavuş təkcə bu mexanikləşdirilmiş hərbi kolona müqavimət göstərmək planı barəsində düşünmürdü, o həm də Mərənd kazarmasına çəkilməklə kolonu təəccübləndirmək və qəfil hücumla onları məhv etmək planını həyata keçirməyi fikirləşirdi. Amma dəmir körpüdən keçib vətənə qayıtmaq geri dönülməz vəziyyət yaratmaq, evin içində döyüşmək isə fürsətləri əldən vermək və düşməni öldürmək, talan etmək, zorlamaq üçün daha da hiddətləndirmək ehtimalı demək idi.

Bəs Mərənd və Təbrizdən bir neçə saat sonra gələcək köməkçi yerli qüvvələrin döyüş qabiliyyəti düşmənin müdafiə və döyüş sistemini üstələyə bilərdimi?

- Mən Təbrizə teleqram vurdum və sərhəd hərəkətləri ilə bağlı Jandarma Komandanlığına raport verdim. Hələlik heç bir xəbər yoxdur. İnşallah Təbriz ordusunu Culfaya doğru hərəkət etdirməyə hazırlaşmağı düşünürlər. Gördüyüm bu buynuzsuz və quyruqsuz ilanın iflic edici zəhəri var Qəytəran!!!

Abdullah bir neçə saat olardı ki, yoldaşı Məhəmmədi rus qoşununun hücumundan xəbərdar etmək və onu toydan buraya qaytarmaq və yol boyunca

digər sərhəd məntəqələrini də xəbərdar edərək, onları öz sərhəd məntəqələrinə köməyə çağırmaq üçün yola düşmüşdü.

- Müseyib! Əgər Təbrizdən xəbər yoxdursa bizim vəzifəmiz nədir? Bəs körpüdən keçmək istəsələr necə edəcəyik? Bunlar dişi canavardan da pisdirlər. Sizin Arazın o tayında təyin etdiyiniz bu vəziyyət sadə bir qoşun hərəkəti xəbəri deyil.

Bu vicdansızlar qarşılarındakı düşmənin mövqelərini topla yerlə-yeksan edirlər. Daha sonra da, yaralıları və sağ qalanları güllələmək üçün canavar əsgərlərini göndərirlər. Mən onların vicdansızcasına döyüşdüyünü görmüşəm.

Onu müharibənin təşviş və dəhşətli dünyasından, amansızlıqdan uzaqlaşdıran fikir, sərhəd məntəqəsindən kilometrlərlə uzaqda, evinin kiçik bağçasının ortasındakı taxta daxmanın içində dayanan hamilə arvadını seyr etmək idi. Onun gözəl yanaqları hünnədən qızarmışdı və üzündəki solğun təbəssüm hekayənin gedişatından xəbərsiz idi. Sərhəd zastavasının ətrafında gəzən Qaytaranın qışqırması, onu bu gecə tez bir təşviş və narahatlıq aləminə qərq etməsi kimi səslənirdi.

Çavuş, çavuş! Yaxınlaşırlar. Tapşırığınız nədir? Nə etməliyik? Bu zamana qədər nə İran sarayından, nə də yuxarı hərbi komandanlıqdan sərhəddəki mövcud təhlükə qarşısında müqavimət göstərmək və ya sərhəd zastavasını tərk etmək barəsində heç bir tapşırıq gəlməmişdi. Sərhəd zastavasının qalan üzvləri arasında yeganə yüksək rütbəli şəxs Biləsuvardan tutmuş Şahsevən tayfalarına qədər olan ərazidə sərhəd bölgələrinin əhalisi tərəfindən yaxşı tanınan çavuş Museyib Məhəmmədi idi. O, hörmət və ehtiram sahibi idi. İndi çavuş qalmaqla getmək arasında bir seçim etməli idi. Bu, saatlarla ağıl və sevgi arasındakı qarşıdurmadan yaranan bir mübarizə idi ...

Məhəmməd və Abdullah da gəlib çatdılar. Rusların təxribatçı hərəkətləri barəsində xəbərləri eşidən sərhəd zastavalarının bir neçə kiçik zabiti açıq-aşkar çavuşun əmrinə tabe olmamış və Abdullaha belə cavab vermişlər:

- Jandarma Komandanlığından əmr gəlməmiş hərəkət etməməliyik. Ordunun qarşısında durmaq axmaqlıqdır...

- Hadisənin üstündən bir neçə saat keçməmişdi ki, Təbrizin küçə və bazarları izdihamlı günün ortasında olduğu kimi gecənin yarısında da dolu idi. Bir tərəfdən hərbi faytonlar, digər tərəfdən isə əhali küçələri doldururdu. Digər söz-söhbətlər onların şübhələrini doğruldurdu. Xalq bu xəbərləri təsdiqləyirdi.

Onlar məəttəl və təşviş içində bir neçə saat əvvəl Təbriz səmasını dəhşətli gurultu ilə dolduran nəhəng rus təyyarələrindən danışdılar. Bəzi hərbçilər aşağı hündürlükdə uçduqları üçün onların bombardmançı təyyarələr olduğunu müəyyən etmişdirlər. Bazardakı hərc-mərclikdə xalqa yalan və doğru xəbərlər verilsə də, camaat nə edəcəyini bilmirdi. Şotorban məhəlləsindən bir qrup insan Müctəhidi məhəlləsinə getmişdilər. Bəzi narahat və qorxmuş insanlar küçələrdə dayanmışdılar.

-Hacı Mirzənin evinə gedirik, görək nə tapşırıq verəcək? Şahın rus ordusu ilə döyüşmək cəsarəti yoxdur.

Təbriz hələ də öz sinəsində rus top mərmilərinin izlərini saxlayırdı. Təbriz hələ də Birinci Dünya Müharibəsi illərində rus əsgərlərinin qanlı əlləri ilə qətlə yetirilmiş kişi və qadınların məzarları ilə dolu idi.

Ruslar heç vaxt İran xalqı ilə yaxşı qonşu olmayıblar. Bu isə, İranın saray əyanlarından heç birinin başa düşmədiyi bir məsələ idi.

Bu məkrli düşmənin qonşusu olan İranın şərq və qərb bölgələrinin əzab çəkən insanları isə Pəhləvi hökumətindən daha ağıllı idilər. Onlar həmişə rusların İran üçün təhlükəsi olması və hərisliyi barəsində ölkənin rəhbərliyini xəbərdar edirdilər. .

Bəs hansı qulaq həqiqətləri dinlədi və bu insanların nigarançılığını anladı? Xalq hökumətlərin laqeydliyi ilə yoxsulluq və məhrumiyyətin əzablarına düçar olmuş və çarəsi tükənmişdi.

Ləyaqət və izzət sahibi olan bu xalq, şərəf və zillətin mənasını dərk edərək, öz tarixində Çaldıran müharibəsi və Məşrutə Hərəkatı, kimi dastanlar yazmışdı.

Bir həqiqətin nəqli və sərhəd boyunca yaşayan azəri xalqının hərbi şücaətinin təfsiri olan hekayəmizə qayıdaq. Bu alınan bir qərar nəticəsində yaranan və həmişəlik yaddaşlarda qalan, bir xalqın vətənpərvərlik, qeyrət simvolu kimi şərh olunan bir tarixdir.

Yay öz istiliyini düzənliklərdən, çöllərdən, bağlardan toplayırdı. Dağın sərin, bəzən də soyuq gecələri sərhədləri, yer üzünü və onun canlılarını yeni bir mövsümə hazırlayırdı. Bu fəsil dəyişikliyi zamanla yeni bir oyanış gətirir, təbiətin bu ritmik hərəkətinin gözəlliyinin vəhdəti dağlardan aralıda çoban qamışının səsi ilə canlanırdı. Bütün bunlar isə çavuş Seyid Məhəmmədin şüurunda canlanırdı. Zehnində bir ad var idi. O isə, bunu qələm ilə necə yazacağını, sözlə necə ifadə edəcəyini bilmirdi. Ancaq bu şey, qəlbdən-qəlbə keçərək əcdadlarının ona buraxdığı bir miras idi.

O ada vətən deyirdilər. O, təkcə coğrafiya, torpaq, su və xatirələrinin doğulub yaşadığı yer demək deyildi. O, vətəni ana laylası ilə başlayan və süvari atının dırnaqlarında ucalan hiss kimi şirin olan bir duyğu hesab edirdi. Bu gecə ona öyrətməli idi ki, canını və cismini vətənə fəda etməlidir ki, vətənin adı əbədi və ulu qalsın. Həzrət peyğəmbərin (s) də sözünə əsasən: “Vətəni sevmək imandandır...”

Hamı öz mövqeydə yerini tutmuşdu. Abdullah və Məhəmməd hər biri növbə ilə sursat tədarükü etməli idilər. Qeytəran və çavuş isə, yüksəkliklərdən iki dolu silahla körpünün o biri tərəfindəki hərəkətliliyi nəzarətdə saxlamalı idilər. Rus əsgərləri sərhədi keçib irəliləmək niyyətində olan kimi müharibə başlamalı idi. Köməkçi qüvvə gələnə qədər onları gecikdirməli idilər.

Mərənd Sərhəd Qarnizonu və Təbriz Mərkəzi Jandarma Komandanlığına gecədən bəri bir neçə dəfə teleqraf göndərmişdilər. Amma heç bir xəbər yox idi. Sanki xəttin o biri tərəfində heç kim nəfəs almırdı. Gecə yarısında bir neçə rus

təyyarəsi sərhədi keçərək Təbrizə tərəf uçmuşdu. Bütün əlamətlər qanlı toqquşmanın qaçılmaz olduğunu göstərirdi.

Böyükdən kiçiyə hamı bilirdi ki, onların bir nömrəli düşməni olan Rusiya çox təhlükəlidir. Teleqramını səsi ilə Məhəmməd özünü dərhal otağa çatdırdı. Teleqram kağızına anlaşılmaz sözlər həkk olunmuşdu. Əsgər stulda oturmadan ixtiyarsız və susqun halda sözləri oxuyurdu.

- Təbriz Jandarma Komandanlığından! Zati-alilərinin əmri ilə bütün sərhəd zastavalarında heç kəsin rus ordusuna müqavimət göstərmək hüququ yoxdur... vəssəlam!

Durbinin şüşəsində görünən mənzərə sərhədin bu tərəfindəki zabitlərin zehni təsəvvürlərindən daha çox narahatlıqverici idi. Sanki çavuş və əsgərlərin düşməni aşkar etməsi üçün ay işığı daha çox aydınlıq verirdi. Önündə Üzərində pulemyot quraşdırılan maşınlar və yarısına qədər çadırlarla örtülmüş olan ard-arda görülməyə başladılar.

Rus əsgərlərin dəbilqələrindən məlum olurdu ki, bunlar əsgər daşıyan maşınlar idilər. Kolonun arxasından gələn bir neçə maşın isə onlar həmin bölməyə rəhbərlik edən komandirlərin maşınlarıdırlar. Kolonun uzunluğu və hər bir avtomobil arasındakı məsafəni müşahidə edərkən onların xüsusi nizam-intizamı gözə çarpırdı.  Söhbət təlim keçmiş hərbi qoşundan gedirdi. Bütün yol tutan ilk nəhəng T-35 tankı görüldü.

Qeytəran gözlərini durbinin obyektivindən ayırıb həyəcanla snayper tüfəngini yoxlayan çavuşa  baxdı. Çavuş Qeytranın narahatlığını duyub, anladı ki o, dəmir nəhənglərdən birini görüb. O, səngərdə dirsəyinin altındakı torpağı düzgün nişan almaq üçün hazırlayarkən sakitcə dedi:

-Bizim onları partlatmaq üçün silahımız yoxdur. Amma ön buferinə diqqətlə baxdıqda, sürücünün başı aydın görünür. Sürücünü sıradan çıxarsaq, daha kolonu partlatmağa ehtiyac yoxdur ...

- Çavuş!.. Təbrizdən teleqram gəlib.

Seyid Məhəmmədin səsi idi. O, təngənəfəs halda özünü çavuş və Qeytəranın olduğu qayanın arxasına çatdırdı. Qeytəran teleqram xəbərini eşidəndə sanki illərdir bu xəbəri gözləyirmiş kimi ayağa qalxdı. Məhəmməd nigaran halda məktubu çavuşa verdi. O, ümidsiz halda Qeytərana baxıb, başını bulamaqla pis olduğunu işarə etdi.

Qeytəranın dodaqlarındakı təbəssüm hələ tam qurumamışdı ki, qaşlarını çataraq xəbəri oxuyan çavuş dərin fikirə getdi.

-Xəbər nədir Müseyib? Vəzifəmiz nədir?

Qeytəran yazıb-oxuya bilmirdi. Yazıb-oxumaq bacarığının olmaması onu bir çox hallarda daha da hirsləndirirdi. Onun ürəyinin həyəcandan dayandığı ən ciddi zamanlardan biri də həyatının bəlkə də ən önəmli mesajı olan bu teleqramı oxumaq həvəsi idi.

Sən bizi həyəcandan öldürdün, çavuş... De görək, bu kağızın sonunda nə dedilər? Biz nə etməliyik?

- Şahın açıq əmri ilə bizim rus ordusuna müqavimət göstərməyə haqqımız yoxdur.Ağır və dərin bir sükut çökdü.

- Deyirdim axı, bu qorxaq padşah bir gün canının qorxusundan bu torpağın işğalına icazə verəcək... sənin qeyrətinə tüpürüm...

Qeytəran bunu deyib formasının cibindən bir paçka Əşnu siqareti çıxarıb birini yandırdı. Çavuş hələ də düşünürdü və bu səssizlik onu narahat edirdi. Bu teleqram kağızında tapşırığın növü göstərilməyib. Tapşırığının növü isə saatlarca əvvəl müəyyən edilmişdi. Amma bu xəbər təzəcə yetişmişdi. Bu iki mənalı sözün fikrini düzgün başa düşməyin fərqi var idi.

Müqaviməti bir kənara qoyub, düşməni dost saymalıyıq. Amma vətən, torpaq sözünün əsil həqiqəti olan din, şərəf və ləyaqət anlayışları bəlkə də Qeytəranın içinə çəkdiyi Əşnu siqaretinin tüstüsündəki dərin qatran zərrələri kimi aydın idi.

Əlindəki “Borno” tüfənginin durbinindən gözləri uzaqlarda dikilmiş çavuşun sinəsindən çıxan inamlı və sakit nəfəsləri nigaranlıq əlaməti deyildi. Bir

məmləkətin padşahı üçün bu düşüncəni dərk etmək, bəlkə də onun bütün hökuməti, var-dövləti və nüfuz qədər mühüm idi. Amma bura İranla Rusiya sərhəddidir. Savadsız Qeytəranın qəzəbli çöhrəsi və  çatılmış qaşları saray əyanlarının ikiüzlü və hiyləgər siyasətinə, İran şahlarının yalanlarına və vətənin müdafiəsində səriştəsizliyinə layiqincə cavab verirdi.

Zaman keçirdi. Çavuş hələ də heç nə demirdi. Amma bir neçə dəqiqə idi ki, Seyid Məhəmmədlə Qeytaran çavuşun teleqram kağızını əzdiyini gördülər. Bu çox şey demək idi. Bu o deməkdir ki, bundan sonra tarixi orada olan dörd nəfər yazacaq. 1941-ci ilin sentyabr ayının yetişməsinə çox az vaxt qalırdı. Gecə öz qaranlığını itirirdi. Dağın vəhşi küləyi sübh azanının ara-sıra və ritmik sədalarını uzaqdan-yavaş döyüş meydanının ortasına gətirirdi. Bu çox qəribə idi.

Rus tankları və əsgər daşıyan maşınlarının səsi çox yaxından gəlirdi. Amma sərhəd zastavasından kilometrlərlə uzaqda yerləşən qonşu kəndlərdən əzan səsinin buraya yetişməsi fərqli bir əlamətə malik idi. Qorxu naməlum və cəsarətli bir hisslə qarışdı.

Burada dayanıb vətəni son nəfəsə qədər müdafiə edəcəyik. İstəyən geriyə qayıda bilər. Yol açıqdır. Qaçıb canını xilas edə bilər. Çavuş bu sözləri xüsusi bir əzəmətlə deyirdi. Sanki o deyirdi ki, bir neçə saat sonra başlayacaq döyüşdə dağlar, çay, torpaq, külək, bağlı atlar bu tənha sərkərdənin köməyinə çatacaqlar.

Teleqram xəbərlərinin gəlməsi İran ordusundan istənilən kömək və yardımdan ümidsiz olmaq demək idi. Çavuş Museyib Məhəmmədi Culfa sərhə zastavasının üzvləri üçün yeni bir yol seçmişdi.

Qeytəran elə bu yerin sakini idi. Çavuş Kəlibərdən, Seyid Məhəmməd Azərşəhrdən, Abdullah isə Təbrizdən idi. Çavuşun əmri ilə hər kəsin seçim etmək hüququ var idi.

- Ya şəhərlərinə qayıtmaq, ya da qalıb mərdcəsinə müdafiə olunmaq ...

Valilik binasının qarşısında uzun növbə yaranmışdı. Silah dəsti və patron dolu qutuları daşıyan qoşa atlı arabalar bir-birinin ardınca malikanənin həyətinə

daxil olurdu. Bir qrup əsgər silahları yerə boşaldır, digər qrup isə jandarm rəisinin nəzarəti altında onları camaata paylayırdı.

Silahı təhvil alan hər kəs, əsgərlərdən güllə dolu torba da alırdı. Gəcil qapılarından tutmuş, İstanbul və Şotorban qapılarına qədər hər yerdə səngərlər qazılmışdı. Şəhər əhalisinin silahlandırılması Hacı Mirzə Sadiqin təklifi və Təbriz şəhər valisi ilə jandarm rəisinin birgə göstərişi əsasında həyata keçirilirdi. Birinci Dünya Müharibəsinin acı təcrübəsi və ondan sonrakı faciəvi Məşrutə hadisələri hamını dərindən sarsmışdı. Dünən gecə Hacı Mirzənin evində şəhər ağsaqqalları, tacirlər və nüfuzlu şəxslər tərəfindən verilən müqavimət qərarı çox mühüm idi.

Çoxları dünən gecə baş verən hadisəni Təbrizin tasua gecəsi kimi şərh edirdi. Çox böyük bir qərar verilmişdi. Düşmən güclü və qüdrətli idi. Qabaqcıl döyüş texnikasından tutmuş döyüşməyi bilən təlim keçmiş əsgərlərə qədər hər şeyi var idi. Bu tərəfin isə uğursuzluğa düçar olma ehtimalı daha yüksək idi. Şayiə yayılırdı ki, bir çox zabitlər bu qərarın nəticələrindən və padşahın cəzasından qorxaraq, sarayın əmrindən boyun qaçırmamaq üçün gecənin qaranlığından istifadə edərək, tək və ya ailələri ilə birlikdə Təbrizdən qaçıblar.

Bəzi insanlar isə öz ailələrini, arvadlarını və qızlarını hər vasitə ilə Təbriz ətrafındakı kənd və qəsəbələrə göndərirdilər. bəzi ailələrin isə, həm kişiləri, həm də qadınları birlikdə silahlanmışdılar.

Evləri və damları səngərlər düzəltmək üçün istifadə edirdilər. Hər kəs rus bombardmançı təyyarələrinin olduğunu bilirdi və nəhəng T-35 tankları haqqında eşitmişdi. Amma şəhərdə qəribə bir hay-küy mövcud idi. Bu hekayə sadə bir düşüncə ilə iki mənalı bir sözün mənalarını anlamaq arasındakı fərq idi.

Bir millətin torpaq və vətənin mənasını din, namus və azadlıq anlayışı kimi yozumunu sətir-sətir tapmaq olardı. Əksinə olaraq; Bu sözün padşah və mərkəzi hökumətin saray əyanlarının təsəvvüründə başa düşülən mənası isə, hökuməti saxlamaq müqabilində torpaqları vermək idi...

Tarixin iti gözü heç nəyi diqqətdən kənarda qoymur.

Hətta dünən gecə İran-Rusiya sərhəddində 4 İran əsgəri tərəfindən bağlanan əhd-peyman da tarixə düşdü.

Səhərdən rus kəşfiyyat təyyarələrinin gurultusu şəhərin həyəcanını daha da artırmışdı. Taxıl və yem anbarının qapıları açıq idi. Dünən axşamkı müşavirədə şəhərin mühasirəsinin uzadılmasının mümkünlüyünü proqnozlaşdıran valinin əmri ilə ərzaq paylarının verilməsinə başlanılmışdı. Xalqın içərisindən təyin edilən bəzi şəxslər hərc-mərclik və bəzi fürsətcillərin iğtişaşlarının qarşısını almaq üçün şəhərdə və anbarın ətrafında yerləşdirilmişdilər.

Şəhər döyüşə hazırlaşırdı. Ətraf qəsəbə və kəndlərdən kömək üçün gələn silahlı kişi və gənclərdən ibarət dəstələr toplaşırdılar. Zaman sürətlə irəliləyirdi. Xəbərlər isə zamandan daha sürətli şəkildə yayılırdı. Xalq arasında hansı xəbərin doğru, hansının yanlış olmasının bir önəmi qalmamışdı. Qorxanlar qaçdılar və qalan silahlıların çoxu döyüşməyə hazır idi...

Təbriz jandarması şəhərdən kənara, "Təlxine" çayının kənarına qədər mühafizəçiləri göndərib, onlara dayanıb müqavimət göstərməyi əmr etmişdi. Rus hərbi kolonunun sürətlə irəliləyəcəyi təqdirdə iki gün sonra Təlxine çayına və şəhər darvazalarına çatacağı proqnozlaşdırılırdı.

Tehrandan da xəbər var idi. Sovet səfiri və Böyük Britaniyanın Tehrandakı səlahiyyətli nümayəndəsi baş nazir Əli Mənsuru ziyarət edərək hökumətə məlumat verdilər ki, müttəfiqlərin İranı keçmək tələbinə məhəl qoymadığı üçün Sovet İttifaqı Culfa, Astara və şimal-şərq Xorasanın sərhəd bölgəsi olan Dərgəz və Bacigəran olmaqla üç istiqamətdən İrana daxil olmaq niyyətindədir.

- Çavuş... Əgər topdan istifadə etsələr nə edəcəyik?
- Körpünü partlatmayacaqlar...! Əgər körpü dağıdılsa, onların bu bölgəni keçməyə başqa bir yeri qalmayacaq. Sadəcə, körpünün üstündə bu tanklardan birini dayandırmalıyıq. Sudan isə keçə

bilməzlər. Çünki su çox dərindir və körpü olmadan oradan keçə bilməzlər.

Dağdan gözəl meh əsirdi. Ayın işığı, kəkliklərin səsi və piyada döyüş maşınlarının mühərrikinin ürək dağlayan nəğməsi ilə balanssız bir ahəng yaratmışdı. Hazır vəziyyətdə olan dörd əsgərin hamısının gözləri silahlarına dikilmişdi. Hədəf İran-Sovet sərhədi körpüsü idi. Çavuşun əmri ilə heç bir səhv etməməli idilər. Maşınların və tankların sürücüləri ilk hədəflər idilər. Qeytəran tankların və maşınların üstündəki pulemyotları zərərsizləşdirməli idi.

Əmrin icrasını koordinasiya etmək, hədəfini itirməmək, eləcə də atış zamanı düşmənin gözündən gizlənmək və onu vurmaq prinsipinə riayət etmək - bütün bunlar dünən axşam müqavimət göstərmək üçün razılığa gəldikdən sonra hamının təkrar etdiyi sözlər idi. Bu söyüş sahəsində qazanılan xallar çox deyildi. Daha doğrusu, çavuş düşməni oyalamaq və körpüdəki maneələri aradan qaldırmaq prinsipini önə çəkirdi ki, partizan müharibəsi nəticəsində düşmənin əhval-ruhiyyəsini pozaraq, qarşıdakı körpünü müqavimətsiz və asan keçməyin mümkün olmadığını göstərsin.

İlk piyada maşını yolun torpaq kənarından çıxarılaraq sürətlə körpünün dəmir girişinə daxil oldu. Körpünün ortasındakı bayraq İranın tam sərhəddi idi. Çavuş tərəfindən atəş əmri verilməmişdi. Düşmən maşını və ya əsgərlər gələnə qədər heç kimin atəş açmağa ixtiyarı yox idi. Nəhəng hərbi maşın hədəfə yaxınlaşırdı. Çavuş yavaş-yavaş barmağını tətiyə yaxınlaşdırdı. Hədəf maşının sürücüsünün başı idi.

Qeytəran maşının üzərində ağzında siqaret olan əsgəri nişan almışdı. O, körpünün ətrafını da nəzarətdə saxlayırdı.

- İşarə verilmişdi. Bütün hədəflər göz qabağında idilər. Körpünün qərb tərəfi çavuş və əsgərlərin gizləndiyi yer idi. Seyid Məhəmməd qüllənin yuxarı hissəsindəki pulemyotun arxasında, Abdulla isə şimal qülləsindən pusqu qurmuşdular. Proqnoz belə idi ki, ilk təbii səhv atışla hədəf qorxu içində qaçacaq və onlar sürətlə kamuflyaj olunacaqdılar. Nəticə etibarı ilə, ən yaxşı və sürətli

üsul ilk atışda hədəfini nişan almaq idi. Körpüdəki bayraq lövhəsindən bir neçə metr aralıda çavuş Qeytərana tərəf dönüb dedi:

- Onlara elə bir cəhənnəm yaşadaq ki, tarix yazsın…

- Qeytəran gülümsəyərək və gözünü hədəfdən ayırmadan dedi:

- Deməli, çalışmalıyıq ki, tez getməyək!

İxtiyarsız halda, çavuşun dodaqlarında təbəssüm yarandı. O, gözünü hədəfinə dikmişdi. Qəzəb onun bütün varlığını doldururdu. Əsgərləri daşıyan maşının anbaan hərəkəti və onun İran sərhədinin mövqelərinə yaxınlaşmasını müşahidə edirdilər. Bu, onun düşməni öldürmək üçün cəsarətini ikiqat artırırdı. Baxışlarının ortasında bir qartal pusquda durmuşdu. Dağlara atılan ilk güllə ölümcül səfir idi.

Güllənin partlama səsi on qat daha möhkəm səs və heyrətamiz sürətlə əks olunaraq, dağın ortasına və çayın sahilinə yayıldı. Hərbi kolon dayandırıldı. Səsin istiqaməti aydın deyildi. Bu səsin istiqamətini sadəcə bir anlıq anlayanlar isə çavuş və başı cansız şəkildə maşının sükanının üzərinə düşən sürücü idi. İkinci atəş səsi ilə isə maşının üzərində olan pulemyotçunun cansız bədəni yerə düşdü. Kolonun hadisə yerinə daha yaxın olan birinci sırası atəş açıldığını başa düşdülər.

Dəhşətə düşən əsgərlər özlərini maşınlardan aşağı atırdılar. Özlərini harada təhlükəsiz hiss edirdilərsə, oraya sığınırdılar. Əsgərlər tərəfindən hər tərəfə atəş olunmağa başlandı. Bütün güllələr boşa gedirdi. Dağ cəhənnəmə çevrilmişdi. Güllələrin qulaqbatırıcı səsi və hər tərəfi bürüyən narahatlıq və çaxnaşma…

Abdulla üçüncü snayper idi. O, körpünün üzərində Qeytəran və çavuşdan daha yaxşı mövqeyə malik idi. Əsgərləri qorxu və dəhşət bürümüşdü. Əsgərləri vurmaq üçün çox gözəl imkan yaranmışdı. O səbrlə hədəflərini tək-tək vururdu. Çavuş çox yaxşı atəş açırdı. Oyun əvvəldən başlanmışdı. Hərbi kolon dağılırdı. Əsgərlər bir-birinin ardınca yerə yıxılırdılar. Hədəf yalnız düşmənin alnı idi. Körpüdə heç kim yaralanmamalı idi. Hamı yorulmalı idi.

Kolon sürətlə geri çəkilməyə başladı. Abdullah pulemyotdan istifadə etmək üçün çavuşun əmrini gözləyirdi. Səssizlik dağlara qayıtmışdı.

Təbrizdə sentyabrın birinci gününün səhəri rus bombardmançılarının gurultusu ilə başlamışdı. Xəbər çatmışdı ki, təyyarələr yolda bir neçə dəfə Mərənd kazarmasını bombalayıblar. Yaralananlar və ölənlər barədə dərhal məlumat verilmir.

Təbriz qarnizonu da təyyarələrin hədəfində idi. Dünəndən etibarən jandarma rəisinin kəşfiyyat təyyarələrini atəşə tutmamaq əmri ləğv edilib. Təyyarələri vurmaq üçün yaxşı vəziyyətdə olan bir neçə pulemyot damlara quraşdırılmışdı.

Cənab vali...! Culfa sərhədindən 47-ci rus diviziyasının sərhəd jandarmiyası ilə toqquşduğu bildirilir. Müharibə rəsmən başlayıb, sizcə, indi sərhədə qoşun yeritmək çox vacib deyilmi?... Bu, valilik binasının həyətində vali ilə söhbət etməyə imkan tapan və sərhədçilərə kömək etməyə hazır olan təbrizli bir iş adamının səsi idi.

- Rəhim Xan...! Mən də səhər bu barədə eşitdim. Bu xəbər xalqın qüdrətini və gücünü min dəfə artıracaq. Orada nə qədər sərhədçi olduğunu və ya onların kim olduqlarını bilmirəm. Amma mən onların şərəfini İran şahının bütün taxt-tacı ilə dəyişmərəm. Kaş ki, onlara əlavə qüvvələr göndərə biləк... Amma təəssüf ki, nə silahımız, nə də qoşunumuz var. Biz hamımız mərkəzi hökumətdən kömək ümid edirdik. Təəssüf ki, dünənki teleqramları ilə alınlarına alçaqlıq damğasını əbədi olaraq qoydular.

Rəhim xan dünəndən güllə hazırlamaq və istehsal etmək üçün anbarlarını pulsuz olaraq jandarma və xalqın ixtiyarına vermiş Azərbaycan vilayətinin ən böyük barıt satıcılarından biri idi.

- Cənab.. rusları şəhərdən kənarda pusquya salmaq daha yaxşı olmazdımı? Sərhəd toqquşmaları gec-tez sərhədçilərin öldürülməsi ilə bitəcək. Bizim Sufyan və Mərənd ətrafına yaxınlaşıb orada onlarla döyüşmək imkanımız var.

Bəli, yaxşı fikirdir. Amma bizim xalq qüvvələrinin silah-sursatını təmin edə biləcək dayaq qüvvəmiz yoxdur. İkincisi, Təbrizdən kənarda təbii maneələr məhduddur və onların qırx yeddinci diviziyası təlim keçmiş qüvvəyə malikdir. Onların topları və pulemyotları var.

Beləliklə, şəhər istehkam və birləşmə üçün daha yaxşıdır. Zəifliklərimizi və çatışmamazlıqlarımızı tez bir zamanda həll edə bilərik. Kazarmalardan çoxlu sayıda zabit qaçmasaydı, onların vasitəsilə xalqa topdan istifadə etməyi təlim keçmək olardı. Digər tərəfdən isə rus qoşunları Təbrizdən keçsələr, yolları boyunca Zəncanı və Qəzvini xarabalığa çevirəcəklər. Şah və saray əyanlarının axmaq düçüncəsinin əksinə olaraq, onların niyyəti İranı keçmək deyil. Onlar torpağı, namusu talamağa gəliblər, ona görə də son gülləmizə qədər dayanmalıyıq. Bu vaxt valilik binasının həyətinə yeməklə dolu böyük bir at və qatır karvanı girirdi.

Silah almağa gələnlərin sayı çox idi. Xidmət yerini tərk etməyən xalqa sadiq əsgər və zabitlər imarətə təzəcə gəlmiş yemək karvanını daşıyan Bornolu tüfəngi ilə günəşdən yanmış qoca adamı çətinliklə idarə edə bilirdilər. O, özünü valiyə təqdim etdi və dayanmadan dedi:

- Təbrizin valisi haradadır?...

Vali hələ də Rəhim Xanla danışırdı. Atacan vali mənəm...! Hər nə buyuruğunuz varsa, mən sənin xidmətindəyəm. Qoca çox təəccübləndi. Qarşısındakı valinin onunla bu cür rəftar edəcəyini gözləmirdi. Onun əynində gülləkeçirməz jilet və hərbi forma vardı və insanlar arasında silah paylayırdı.

- Cənab, bu, buğda və arpa azuqəsidir. Təbriz yaxınlığındakı kəndlərdən gətirmişik. Biz iyirmi nəfərik və döyüşməyə hazırıq.
- Allah sizi qorusun!

Yüklərinizi həyətin küncündə durub camaata silah paylayan gənc zabit Mirzə Rzaya təhvil verin və onun sizing vəzifənizi təyin etməsi üçün özünüzü təqdim edin.

- Canab, komandir Kuzulov tərəfindən teleqram qəbul edilmişdir. Sergey Trofimenko Moskvada cəbhədən hücum əmri alanda 47-ci Sovet Diviziyasının komandiri idi. O, əvvəldən körpüdə güclü müqavimətlə qarşılaşacağını düşünmürdü. O, iri bədən quruluşlu, saqqallı, sarı bığlı, iti mavi gözlü, nizam-intizamlı, işləyərkən içki içməyə adət etməmiş yaşlı bir kişi idi.

O, sərt və inadkar idi. Sibirdən olduğuna, qorxmadığına və cəsur olduğuna görə döyüşçü yoldaşları arasında şimal ayısı kimi tanınırdı. Qəhvəsini acı-acı qurtumlayıb komanda çadırından çıxdı.

Onun əmri ilə geri çəkilmiş olan və indi sıranın başında dayanan zabit raport verdi. Tam olaraq hansı tərəfdən atəş açdıqlarını müəyyən edin. Zəruri olan halda artilleriyaya zastavaya atəş açmağa hazır olmalarını bildirin.

- Komandir, bütün əsgərlərimiz alnından, qaşın arasından güllələnib. Heç kim yaralı qurtulmayıb. Hər kəs başından güllə yarası alıb və yerindəcə ölüb.
- Komandir düşündü və bir qədər sükutdan sonra dedi:
- "Deməli, biz peşəkar snayper batalyonunun mühasirəsindəyik və onlar bizi elə buradakı körpüdə saxlamaq niyyətindədirlər.
- Bağışlayın komandir, biz Hərbi Hava Qüvvələrindən kömək ala bilərikmi?

Gənc zabit komandirə verdiyi təklifi ilə hərbi zəkasının üstünlüyünü göstərməyə çalışırdı. Lakin qoca gənc zabitinin təklifi ilə hərəkət etməyəcək qədər təcrübəli idi. "Sergey ordunun baş qərargah rəisi tərəfindən seçilərkən kifayət qədər təcrübəyə malik idi. O, dedi:

- "Qərb cəbhələrinin arxasınca gedə bilərsiniz. Təbrizi işğal etsək, Tehran asanlıqla bizim əlimizdə olar."
- Xeyr gənc zabit! Ordunun bu vəhşi çaydan keçməsi üçün iranlılardan çox körpünü biz qorumalıyıq.
- Körpünün zədələnməsi kolonun dayandırmaq deməkdir.

- Snayperlər çox yaxındır.
- Təyyarələr körpünü zədələyərlər.
- Görünür ki, qarşımızda bizi partizan müharibəsi gözləyir. Əlində tutduğu siqareti yandıran zabit dedi:
- “Pulemyotları maşınlardan boşaltın və hündürlükdə yerləşdirin.”

Biz körpüdən keçməliyik. Bu gün qaranlıq çökənə qədər heç bir əsgər qəti şəkildə atəş açmasın. Toplar atəş əmrinə hazır olsun. Gənc zabit əmrləri qəbul edib, komandirin yanından uzaqlaşdı.

Sergeyin bir çox müharibələrdə olub.O, Şərq və Cənub cəbhələrində almanlara qarşı vuruşmuşdu. Qarşı tərəf həmişə təchiz edilmiş, təşkilatlanmış və bütün gücünü sərf etmişdi. Onun döyüşmək üçün xüsusi bacarıqları var idi. Onun hücumlar amansız, bəzən də dəyərsiz bir məqsədə çatmaq üçün axmaqcasına və inadkar idi. O, alman müharibəsi və hücum sistemi ilə tanış idi.

Görünməz casus birlikləri Qırmızı Ordunun əsas sütunlar idilər. Tam hüquqlu Alman casus qüvvələri bir çox yerlərdə ən böyük hücum əməliyyatlarını məğlub etmişdilər. Onların kəşfiyyat və casus qüvvələri ilə ordu arasında qəribə bir ittifaq var idi.

İndi bütün bu düşüncələrlə müharibədən yorulmuş qoca ilk dəfə olaraq fərqli bir təsəvvürdə yeni bir döyüşə girmişdi. Döyüş meydanının ön cərgəsində snayperlərin olması, hərbi kolonun ön mühafizəçilərinin darmadağın edilməsi düşmənin döyüş sistemində fərqli bir düşüncə tərzi olması demək idi.Bu isə, dünəndən bəri rus komandirinin zehni müharibə oyununu pozmuşdu.

Dünəndən etibarən hündürlüyün və çayın o tərəfində ağıllı və qorxmaz bir rəqib görürdü. Atıcılıq bacarıqları mükəmməl idi. İnsanların başından vurulması o deməkdir ki, bu hərbi kolondan heç kim sağ qalmamalıdır. Yəni oradan keçmiş olarlarsa, onları əsl cəhənnəm gözləyir.

Bütün bunlar səhərdən qoca hərbçini məşğul edən, onu düşmənlə mübarizə üçün yeni üsullar seçmək barədə düşünməyə vadar edən fikirlər idi.

Hər hansı bir snayperlə müharibənin başlaması müdafiə müharibəsinin əlaməti idi. Müharibənin aşınması isə onun əlamətlərindən biridir.

Bu gün günortadan aydın görünürdü ki, hava yaxşı deyil. Tutqun buludlar qara və qorxulu pişiklər kimi kənd səmasında anbaan böyüməyə başlayırdı. Həsənlu meşələri İranın Azərbaycan vilayətlərinə baxan ən uca dağlarından tutmuş Səhənd və Savalanın qırışlı yamaclarına qədər, azəri qadınlarının oyulmuş xalçaları kimi çaylar, canavarlar, ayılar, güllər, marallar və yaşıl ağaclar ilə örtülmüşdü.

Bağların divarları uca qayaların üzərinə qədər çatırdı. Bəzən isə uca və qalın kərpic divarların üzərində olan möhkəm və tikanlı kollar köhnə güclü su axını olduqda yaranan deşiklərlərdən özünü kənara atırdı. Divar məxsusi rəng və dizayna malik kimi  dururdu. Burada yaz fəsli uzun keçirdi. Onun qışları isə payız və yaz fəsillərinin gözəlliyi kimi insanı heyrətləndirirdi.

Dağın yaşıl asimanın səxavətli əllərindən asılı idi. Bu uca dağlar kəndlinin könlünü torpaq mülkü ilə sevindirmiş, onlar isə qabarlı əllərini uca Allahın dərgahına qaldıraraq dua və raz-niyaz etmişdilər.

Aramsız yağışlar başlamışdı. Kələjur kəndi sanki firuzə və zümrüdlə boyanmış ləl-cəvahir kimi Həsənlu meşələrinin çiynində durmuşdu. Mələkbanunun köhnə evinin taxta tövləsində bir at, iki inək, ir buzov və bir neçə süd verən qoyun var idi. Bir qədər aralıda, dağlara baxan evinin pilləkənlərinə bərkidilmiş taxta hasarın yanında isə bir neçə toyuq, xoruz və cücə isə hər səhər ev sahiblərini dadlı və doyurucu olan qəhvəyi rəngli yumurtaları ilə ev sahiblərini səhər yeməyinə dəvət edirdilər.

Yağış yağmağa başlayanda hamı bilirdi ki, bir neçə saat yağacaq. Yağışlı fəsillərdə kənddə baş verən daşqınlar camaata tanış idi. Müseybin gəlməsinə bir neçə saat qalmış, yağış başladı. Çevik və qoçaq xanım olan Mələkbanu toyuqları yuvalarına yığmaq və inəkləri tövləyə qatmaqla məşğul idi.

Yağışdan islanmış torpağın qoxusu ilə qonşunun təndir çörəyinin qoxusu bir-birinə qarışanda dağa misilsiz ətir şüşəsi kimi yayılan misilsiz dərəcədə xoş

iy insanı məst edirdi. Yağış daha da şiddətləndi. Dağların qoynunda çaxan şimşək səsi sanki təbiətin sükutla seyr etdiyi bir əjdahanın çığırtısı idi.

Müseyyib islanmış və yorğun halda,  iti yerişli atını tövləyə qatırdı ki, evin kənarındakı taxta hasarın kənarında yağışın və şimşək çaxmasının səsində itən ağlama səsi diqqətini çəkdi. Qapını açanda onların qonşusu Kərbəlayi İbrahimin qızının üstü-başı tozlu və ağlayan halda dayandığını gördü.

- əmi! anam … ona kömək et ... O ölür ...
- Ağlama. Nə olub qızım?
- Bir-bir de görüm nə olub?
- Anamın doğuş vaxtı çatıb.

Yaşlı nənə selin qorxusundan anamın yanına gələ bilmədi. İndi körpə doğulacaq. Sizi and verirəm Allaha! Mələk xalaya deyin ki, anama köməyə gəlsin.

- Get .... sən evə get. Mən də Mələk xalanla gəlirəm indi.

Yağış kəsmək bilmirdi. Mələkbanu sanki hər şeyi əvvəldən hiss edirdi. Amma çarəsiz qadın və onun günahsız körpəsinin işini ancaq aşağı kəndin qoca nənəsi həll edə bilərdi. Qadını onun yanına aparmaq lazım idi. Müseyib atını yəhərləyib, Kərbəlayı Əhmədin arvadı ilə birlikdə bütün çətinliklərə rəğmən çayın aşağı axarından keçərək, onu qoca nənənin evinə çatdırdı. Qoca qarının otağı isti idi. Hamilə qadının naləsi Mələkbanunun qəlbini dağlayırdı. O, əlinə təsbeh alıb, dua edirdi. Müseyib bu gecə baş verənlərdən narahat idi. Kərbəlayi Əhməd bir neçə aydır şəhərə işləməyə getmişdi. Gedəndə isə malını, arvadını və uşaqlarını ona tapşırmışdı.

O, uzun illər ərzində etibarlı bir insan olması və cəsarəti ilə kənd camaatının hörmətini qazanmışdı. Məsafələr və gəlib-getmək üçün mövcud olan çətinliklər, atanın uşaqları ziyarət etməkdən əlini üzmüşdü. Arvadının qayğısına qalmaq üçün artıq gec idi. Bəlkə də taleözü  hekayənin davamını müəyyən edəcəkdi. Müseyib elə bu fikirdə idi ki, körpənin səsi ilə nənənin gülüşü ana və yeni doğulan uşağın sağlam olmasından xəbər verirdi.

Müseyib xan, Mələkbanu! Muştuluğumu verin. Oğlan uşağı doğuldu! Allah bu gecə bizə gözəl və sağlam bir oğlan bəxş etdi.

Mələkbanu uşağı qucağına alıb, gözlərindən axan yaşları silərək xoşbəxtlik dolu təbəssümlə onun üzünə baxarıb dedi:

- “Ağa, siz deyin... Bu uşağa nə ad verək?

Qoca nənənin evinin buxarlı pəncərəsi önündə oturmuş Müseyb dərin bir sükutla sınmış şüşədəki yeganə dəlikdən sayrışan ay işığına baxıb astaca dedi ...

- “Adını Allahverdi qoyun… Sabah da uşağın saıamatçılığı üçün Əli Əsğər (ə) qurbanı kəsin. Bu hadisədən uzun illər keçdi. Allahverdi yaraşıqlı və nəzakətli bir oğlan oldu.

Mələkbanu isti təndirdə çörək yapmağa hazırlaşırdı. Bir müddət idi ki, ərindən xəbər yox idi. O, müxtəlif bəhanələrlə telefon idarəsinə gedib-gəlir və əri Müseyibdən xəbər gözləyirdi. Onun əlləri ələnmiş unla ağarmışdı. Yanaqları isə qırmızı təndirin hərarəti ilə qızarmışdı. Amma onun yanaqlarının qırmızısının və yaşlı başqa bir əhvalatı var idi. Həyətin açılan qapısının cırıltısını eşidəndə ürəyi çırpınmağa başladı. Gələn Kərbəlayının oğlu Allahverdi idi. Onun əlində sulu üzümlər və üzümün iri yarpaqları olan bir səbəd var idi.

Salam Allahverdi! Necəsən bala? Ananın əlləri dərd görməsin. Zəhmət çəkib.

Mələkbanu, təndirdən isti çörəyi çıxararkən dedi: “Gözlə, bu iki çörəyi da apar. Axşam ləzzətlə yeyərsən. Çörəkləri təndirdən çıxarıb dəsmalla oğlana tərəf uzatdı. Allahverdi təndirin alovunu və Mələkbanu xalanın dediyi sözləri dinləyərkən qəflətən dedi:

- “ Xala, xəbərin var ki, ruslar hücuma keçmək istəyirlər?

Qadın bu sözü eşidəndə donub yerində qaldı, ürəyi titrədi, nəfəsi kəsildi. Oğlan Mələkbanunun ayağa qalxmasından qorxdu və bir neçə addım geri çəkilərək qorxaraq dedi:

- “Allaha and olsun ki, bu sözləri mən özümdən demirəm. Maral xanımın oğlu dedi... Axı onun dayısı rusların Araz çayını keçmək istədiyini sərhəd yaxınlığında yaşayan kəndlilərindən eşidib.

- Vaay… Ya qərib imam!

-Cənab vali, saraydan yeni teleqram göndərilib! Çox təcilidir... Vali şəhərin görkəmli şəxsləri ilə malikanənin bağında oturub şəhərin, qəsəbələrin vəziyyəti haqqında danışmaqla məşğul idi. Oxu görüm teleqramda nə yazılıb?!

Məxfidir cənab! İcazə verin, oxumaq üçün şəxsən sizə verim. Vali qaşqabağını çatdı və bir az quru və qanuni tonda dedi: “Bizdə məxfi yoxdur, oğlum... Ucadan oxu görüm bu dəli padşah yenə nə yazıb?

-Şahənşah sarayından! Düşmən muzdlularının bir neçəsinin şah əmrini pozması ilə bağlı İranın Azərbaycan vilayətindən alınan xəbərə görə! Bu adamlar əmrlərə tabe olmaqdan boyun qaçırıblar. Ona görə də bu hərəkatı törədənlər tez bir zamanda həbs olunmalı və gizli şəkildə Tehrana göndərilməlidirlər ki, ciddi şəkildə cəzalandırılsınlar.

Həmişəkindən fərqli olaraq, bu dəfəki sükut sanki fırtınadan öncəki səssizliyə bənzəyirdi. valinin gülüşünün uca səsi ilə digər tamaşaçıların gülüşləri bir-birinə qarışdı. Bu gülüşlər bağın küncündə dayananlara nəsə baş verədiyindən xəbər verirdi. Ərzaq və silahların paylanması tamamlandı. Kəndlərdən, şəhərlərdən Təbrizə gələn insanlar ara-sıra silah-sursat, yemək almağa toplaşırdılar.

Günəş göydən öz isti və yandırıcı şüalarını ülgüc kimi yerə çəkirdi. Səhər tezdən dəhşətli dərəcədə qorxunc səslər eşidildi. Səs yavaş-yavaş yaxınlaşırdı. Səslər anbaan yaxınlaşdıqca səmada görülən nəhəng dəmir quşlar, bütün şəhəri arzuolunmaz qorxuya saldı. Digər səslər səmada təyyarələrin tam iştirakı ilə bütün şəhərə yayıldı. Bütün səmanı bürüyən təyyarələrin səsləri bütün şəhərə yayıldı. İki təyyarə sürətlə valilik binasının üzərindən və Göy Məscidin yanından keçərək hərbi hissəyə doğru irəliləyirdi.

Pulemyotların quraşdırıldığı damlardan ard-arda tüfənglərin qulaqbatırıcı atəş səsi eşidilirdi.Təyyarələrin istiqamət aldığı hərbi hissə tərəfdə qəfildən şəhəri qəribə bir sarsıntı ilə silkələyən dəhşətli partlayış səsi eşidildi.

Hər yerdə çaxnaşma başlandı. Təyyarələrin düz üstündə olduğu ordu kazarmasında birincidən daha güclü olan ikinci partlayış səsi eşidildi. Hər yeri tüstü və alov bürümüşdü. Uşaqların qışqırtıları, insan izdihamının səslərə doğru hərəkəti şəhəri qeyri-bərabər döyüş meydanına çevirmişdi. İnsanlar ilk dəfə Rusiya təyyarələrinin dəhşətli bombardmanları ilə qarşılaşdılar. Maşınlar və faytonlart sürətlə partlayışlara doğru irəliləyirdilər. Ölənlərin sayı hələ ki, bilinmirdi. Ancaq çoxlu sayda mülki vətəndaşın və kazarmada olan əsgərlərin öldürüldüyü barədə məlumatlar var. Bir müddət sonra şəhərin xəstəxanaları bombardman zamanı yaralanan insanlarla dolu idi. Bu, növbəti bombardmanların davam edəcəyi barədə ciddi bir xəbərdarlıq idi.

O, içərisinə kiçik bir oyuq açmış olduğu həsiri başına çəkmişdi. Borno tüfənginin lüləsi görülürdü. Sınmış körpüyə və dirəklərə baxan o qədər də uzaq olmayan məsafə onun işini daha da ağırlaşdırmışdı. Tüfənginin nişangahı hər kəsin hərəkətini izləyirdi. Vurduğu hədəflərinin sayı-hesabını bilmirdi. O, yaxşıca müşahidə edib, vaxtında tətiyi çəkirdi. Təlim və atış zamanı çavuşun düzənlikdə ona öyrətdiyi iki prinsip bunlar idi:

- Baxın və tətiyi vaxtında çəkin... O, hələ də maşından düşməmiş bir neçə əsgəri yerindəcə məhv etmişdi. Digərlərini isə, çavuşun əmri ilə toqquşma zamanı sakit və vaxtında bir-bir öldürmüşdü.

Heç kim bu yolla körpüdən sağ keçməməlidir. O, kolonun sərnişin maşınından körpüyə tərəf yaxınlaşmağa çalışan iki nəfəri hədəfə aldı. Onlardan birini qaşlarının arasından vurdu. Meydanda nisbi sükut hökm sürürdü. Birinci yerə yıxıldıqdan sonra, Maşının yanına qaçaraq sükanı arxasında gizlənmək istəyən ikinci əsgəri də vurdu.

Seyid Məhəmmədin atəşi ilə Qeytəran, Çavuş və Abdullah müqaviməti davam etdirmək əzmlərinə gülümsədilər. Günəş başlarının ortasına çatmışdı.

Teleqram otağından xəbər yox idi. Uzaqdan eşidilən çayın səsi və çoban itinin hürməsi, bəzən körpünün o tayındakı əsgərlərin rusca və anlaşılmaz danışıqlarının səsini batırır və anlaşılmaz edirdi. Döyüş meydanında olan yeganə şey atmosfer idi. Şübhəsiz ki, kənd camaatı səhər tezdəndən etibarən bu səs-küydən və toqquşmalardan xəbərdar idilər. Xəbərlər hər yerə yayılırdı ki, silah anbarın içərisindəki sursatlar top atəşindən və təyyarələrin mümkün bombardmanlarından təhlükəsiz olmaqları üçün dağlara yaxın təhlükəsiz bir yerə aparılıb.

- Çavuş. Qarşı tərəfdə heç bir hərəkətlilik yoxdur. Sizcədə nəsə bir plan cızırlar? Bu dağların uşağı olan Qeytəran yaxşı atıcı idi. Belə gizli işləri isə yaxşı başa düşürdü. O, çavuşdan bir az aralıda, iki böyük qayanın arasında pusquda dayanmış vəziyyətdə çavuşun fikrini öyrənməyə çalışarkən, gözlərini düşmənin mövqelərinə dikmiş halda, siqaret kötüyünün tüstüsünü daha da dərindən ciyərlərinə çəkirdi.

- Onların bir planı olmalıdır... Bu sükut tufan qabağı sakitlikdir, Qeytəran! Onların çayı keçmək üçün heç bir şansları yoxdur. Onlar yalnız körpü barədə düşünürlər. O, danışarkən güclü təkanlarla müşayiət olunan dəhşətli partlayış səsi dağı silkələdi.

- İkinci və üçüncü partlayışlar və ...

- Sığınacaqlara girin... topla vururlar.

- Çavuş, bizim yerimizi aşkarladılar?

Çavuş snayperinin durbinindən bir-birinin ardınca atəş açan və topa mərmi qoyan topçuları gördü.

Xeyr. Onlar yerimizi bilmədən pərakəndə şəkildə atəş açırlar və gözümüzü qorxutmaq istəyirlər. Harada gizləndiyimizi bilmirlər. Amma əgər onların sursat qutularından birini vura bilsək və qutular partlasa, omlara səl cəhənnəmi yaşadarıq.

- Seyid Məhəmmədə de baxsın görsün, onun yuxarıdan ortadakı çadırdakı sursat qutularını vurmaq imkanı varmı?

Seyid Məhəmməd çavuşun sözlərini duymuşdu. Sursat çadırı atış hədəfində idi. Güllələrini boş yerə sərf etməyə tələsmirdi. Çadır partlayandan sonra Abdullah rahatlıqla pulemyotdan istifadə edə bilərdi.

Vaxt sürətlə keçirdi. Düşmənin hərəkətliliyi artmışdı. Pulemyotlar hündürlükdə yerləşdirilmişdilər. Toplar isə onların yerlərindən xəbərsiz dağın sinəsini yaralamağa davam edirdilər.

Sentyabrın istisi qızmar və rütubətli idi. Bəlkə də bu dolanbac çayın ürəyinin hərarəti, onu isti bir vannaya çevirmişdi. Seyid Məhəmməd kamuflyaj üçün başına çəkdiyi həsiri çıxartdı. Gicgahından alnına doğru axan tər onu biraz sərinlətdi. Gözünü Qeytəranın və çavuşun mövqeyindən ayırıb cənub tərəfdə Abdullahı gördü. Hamı onun qüsursuz iş görməsini gözləyirdi. Əllərini başına qoydu və tüfənginin qundağından möhkəm yapışaraq onu çiyninə qoydu.

Tüfənginin nişangahını orta çadıra tuşladı. Gözlərini nişangahdan yavaşca çəkib yenidən qarşısındakı mövqelərə baxdı. Əlləri ilə tüfənginin nişangahını tənzimlədi. Şirin fikirlər dalğası onu istər-istəməz hər səhər dərsdən evə gedən dövrə qaytardı. Şeyx Abbas kəndin mollası idi və hər səhər azan verirdi. Namazdan sonra məktəbi açır, uşaqlara Bustan, Gülüstan və Quran öyrədirdi.

Anası ona Ayətullah əl-Kürsini öyrətmişdi.Hər gün məscidə çatmaq üçün evdən çıxanda onu üç dəfə oxuyardı. Molla Abbas deyirdi:

- “Ayətullah əl-Kursi onu oxuyan insanın ruhunu və qəlbini nurlandırır. O, insanın mühafizəçisidir, günü bərəkətli və sizi düşmənə qarşı güclü edər. Onu hər səhər oxuyanda necə də xoşbəxt idi. Axşamlar atası bağdan gec gələndə ona Ayətullah əl-Kürsini oxuyurdu. İllərdir ki, bu ayə onun qəlbini sakitləşdirməyin açarı olub.
- **“Bismillahir – rəhmanir – rəhim. Əllahu la ilahə illa huvəl-həyyul-qəyyum”**
- **Tərcüməsi: “Bağışlayan və mehriban Allahın adı ilə! Allahdan başqa heç bir Tanrı yoxdur.(Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub**

**bütün kainatı yaradan və idarə edən ,bəndələrini dolandıran və onların işlərini yoluna qoyan ) əbədi ,əzəli varlıq odur.”**

**Yavaş-yavaş oxuduğu zaman onun birinci gülləsi çadırın içərisinə dəydi. Ardınca isə ikinci, üçüncü və …**

Dalğasının səsi gözətçi qülləsini silkələyən dəhşətli partlayış baş verdi. Yan çadırlar yanır, pulemyotlar isə dayanmadan hər tərəfə atəş açırdılar. Qüllənin üstündən meyitlər, toz, tüstü və əsgərlərin qışqırtıları aydın görünürdü. Bu çaxnaşma yaralı və qəzəbli kolona atəş açmaq üçün ən yaxşı fürsət idi. Qeytəran, çavuş və Məhəmməd bir-bir güllə atırdılar.

Komandir Trofimenkonun hərbi kolonunun yolunun bağlı olduğu və kolonun zabitlərinin çıxılmaz vəziyyətdə olduqları aydın görünürdü. Çavuş tüfənginin nişangahı ilə hərbi birləşmənin qırmızı papaqlı zabitlərini axtarır və onları tək-tək sıradan çıxarırdı. Partlayış nəticəsində bir neçə nəfər də yaralanmışdı. Hərbi kolon geriyə çəkilərək, snayperlərin atəşindən uzaqlaşırdı. Gecə yaxınlaşırdı.

Abdulla səhər tezdəndən etibarən bir neçə güllə istisna olmaqla, bir dəfə də olsun atəş açmamışdı. O, çavuşun əmrini gözləyirdi.

Uzaqdan gələn azan səsi yeganə səs idi ki, səssiz dağlara qayıtdıqdan sonra, susuz səhrada axan su kimi çavuş və onun yoldaşlarının tənhalığına şəfa verirdi. Bu yadda qalan bir tarix idi.

Təcrübə və düşüncələrinə qapılıb yavaş-yavaş İranın dəmir sərhəddlərini aşmağa çalışan qoca komandir onun üçün anlaşılmaz bir kabusla üzləşmişdi. Zaman heç bir tərəfin xeyrinə bir an belə uzanmadı. Bu, müharibə idi və onun qanunu yalnız bir şey idi- qələbə qazanmaq. Sergey üçün bu qələbə körpünü keçmək və bu inadkar müqaviməti qırmaq arzusu idi. Ancaq bu dağların adamları üçün qələbə anlayışı daha fərqli bir məna daşıyırdı.

Dünən gecə çavuş onun bütün əsgərlərinin azad olduğunu və istəyən hər kəsin öz şəhərlərinə qayıda biləcəyini demişdi. Çünki ölkəsinin şahının ordunun üç sərhədçisinə silahlarını saxlamağı və hərbi kolona qarşı müqavimət

göstərməyi əmr etməsi məntiqli görünmürdü. Üç yüz nəfərə qarşı döyüşmək çox cəsarət tələb edirdi. Bu, çavuş və onun sərhədçi yoldaşlarının aralarındakı söhbətlərindən sonrakı gecə öldürülməsi demək idi.  Onlarında zehin, düşüncə və lüğətlərində nə ölkə şahı, nə də torpaqlarına və namuslarına göz dikən canavar xislətli qəddar düşməndən qorxuya yer yox idi.

Valilik binasının üstünə iki pulemyot qoyun. Bu dəfə qayıdıb gəlsələr, mütləq camaatın toplaşdığı yeri, yəni valilik binasının həyətini vuracaqlar.

- Bəli, cənab vali!...

Binanın yaxınlığındakı bəzi evlərin damlarının üzərinə də pulemyotlar quraşdırdıq. Amma təəssüf... Onlar kazarma yaxınlığındakı pulemyotçulardan birini atəşə tutublar. Şəhər tamamilə hərbiləşdirilmişdi. Xalqın hamısı silahlı idi. Hər məhəllə və küçənin sonunda bir neçə səngər var idi. Şəhər ağsaqqallarının kollegial qərarı ilə Hacı Mirzənin qərargaha çevirtilmiş olan evindən komandanlığın əmrləri alınır və xalqa çatdırılırdı. İnsanların yeməkləri paylanılırdı.

Bütün xəstəxanaların dərmanları tükənmişdi və ləvazimatlara ehtiyac var idi. Xalq isə tez bir zamanda lazım olan vəsaitləri aralarında toplayıb, xəstəxanalara aparırdılar. İlk bombardmanda itkilər çox idi. Müqavimət göstərmək üçün qalan zabitlər və əsgərlərin çoxu yaralı idi. Müctəhid məhəlləsi izdihamlı idi və insanlar ətrafa qaçışırdılar. İzdiham çox idi və nə baş verdiyi bəlli deyildi. Hamı gözləyirdi ki, indi Hacı Mirzə gələcək. Camaatın içindən biri irəli çıxaraq dedi:

Hacı Mirzənin evinin qapısını döyək... Ağa nə deyirsə edək!

- Oradakılardan biri yüksək səslə qışqırdı:
- “Kiminsə icazəsinə ehtiyacımız yoxdur. Onları asmaq lazımdır!  Adamın dediklərini təsdiqləmək üçün onların yanında bir neçə nəfər dayanmışdı. Hacı Mirzənin evinin önündə hay-küy qalxdı. Bir nəfər gənc evdən çıxıb vəziyyətdən xəbərdarmış kimi dedi:
- “Ağa indicə gələcək.

Səs-küy salmayın. Bir nəfər ona vəziyyəti izah etsin. Elə bu vaxt həyətdəki iri qızılgül kollarının arxasından Hacı Mirzə peyda oldu. Əynində kətan paltarı və əlində taxta əsa var idi. Camaat onu görən kimi ucadan qışqırdı.

- Salam! Nə olub, cənablar, vəziyyət necədir? Camaatın arasından bir neçə dəqiqə əvvəl qətl hökmü qışqıran bir nəfər çıxıb Mirzəyə yaxınlaşdı.

  Salam Hacı Mirzə... Biz bu bir neçə muzdlunu erməni dərman alverçisi Markanın evinin zirzəmisindən tutmuşuq... Şəhərdəki vəziyyəti ruslara teleqramla çatdırırdılar.

- “Ağa, biz onları şəhərin ortasında asmalıyıq.” Mirzə kişini dinləyərkən camaata işarə etdi ki, o iki nəfər muzduru irəli çıxarsınlar. Əlləri bağlı, başları və üzləri yaralanmış 3 nəfər izdihamın arasından önə çıxarıldı. Həyasız erməni Markan da başıaşağı və utancaq halda silahlıların yanında durmuşdu.

- “ Əllərini açın... Kişilərdən biri etiraz etmək istədi, lakin Mirzə susaraq başını tərpətdi və sözlərinə davam etdi.

- Adın nədir, cavan oğlan?

  Kişi qorxu içində başını qaldırıb Mirzəyə baxaraq dedi:

- “Qafur... Bəy, mən lənkəranlıyam. vallah, heç nə etməmişəm.

- “Allaha and içmə... Səni bu işə kim cəlb edib?”

Kişi başını yanında olan digər iki nəfərə çevirdi və dili topuq vuraraq dedi:

-“ Ağa, sizi and verirəm Allaha. Arvad-uşağımız əsirlikdədir.

- “Sualıma cavab vermədin. Sizə bu işi kim tapşırıb?

Bəy, bizi Təbrizdə baş verənlərin hesabatını ruslara verməyə məcbur edən adam bizə dedi ki, bir söz desək, arvad-uşağımızı öldürəcəklər...

Ağa Mirzə, sizi and verirəm beş Pənce Ali Əbaya. Bizi bağışlayın!

Mirzə sualını təkrarladı.

- “Ağa, həmin adamın soyadı Bağırovdur. İran adı da var. Ruslar ona Təbriz valisi olacağına söz veriblər. O, çox qəddar adamdır. Özünün əli hər tərəfə çatır. Arvadlarımız, uşaqlarımız da onların əlində girovdur.”

Mirzə narahat halda başını buladı. O, dərin fikirə getmişdi.

- Bəli, adı... Cəfər Pişəvəridir. Məşrutə mücahidlərinin çoxu bu adamı yaxşı tanıyırlar. Hamımız bilirik ki, o, Sovet İttifaqının təsirindədir və dinsizliyi təbliğ edir. O, onları Mirzənin yanına gətirməklə vəzifəli olan jandarma zabitlərindən birinə üz tutdu və dedi:

- “Getməkləri üçün onların əllərini açın. İstəsələr, qalar millətini, dinini, namusunu qoruyarlar. Əgər getmək istəyirlərsə, buraxın getsinlər.

- Hacı Mirzə, axı bunlar...

- “Onları azad edin! Əgər siz mənim fikrimizi bilmək istəyirsinizsə və bu insanlar məni öz müvəkkilləri hesab edib həyatlarının yaxşı və pisini məndən soruşurlarsa, mən Mirzə Sadiq Təbrizi də deyirəm ki, onların heç bir günahı yoxdur. Qoyun arvad-uşaqlarının yanına getsinlər.”

Mirzə sözünü qurtaran kimi bir neçə nəfər onların əllərini açdı. Əlləri açılan kimi hər üçü Hacı Mirzənin ayağına düşüb ağlamağa, üzr istəməyə başladılar. Hacı Mirzə onların üçünü də kənara çəkib dedi:

Siz səhv edib onun kimi dinsiz bir insana etibar etmisiniz. İndi ya qalıb vuruşun, ya da ailələrinizin arxasınca gedin. Elə bu vaxt qulaqbatırıcı və dəhşətli səs oraya toplaşanları pərən-pərənə saldı. Səs o qədər yaxın və güclü idi ki, insanlar qorxu və heyrət içində yerə uzanırdı. Bəziləri isə qaçırdılar. Üç rus təyyarəsinin kölgəsi ildırım və külək kimi camaatın üzərindən uçurdu. Pulemyotlar işə düşdü. Əlində silah olan hər kəs səmadakı təyyarələri nişan aldı.

İstanbul qapıları yaxınlığında pulemyot səsləri, insanların çığırışları, təyyarələrin gurultusu, güclü və dağıdıcı partlayış səsləri eşidilirdi. Səsi eşidən camaat daha da qorxub İstanbulun küçə və qapılarına axışdılar. Təyyarələr eyni anda iki bomba ataraq şəhərdən uzaqlaşırdılar. Hətta uzaqdan durbinsiz belə,

təyyarələrin Övn bin Əli dağının yamaclarına çatmadıqları, fırlanaraq şəhərə qayıtdıqları aydın görünürdü. Damda olan pulemyotçular patronlarını dolduraraq, toqquşmaya hazırlaşırdılar.

Şəhər tüstü, dəhşət və güllələrlə bürünmüşdü. Təyyarələr dövrə vururdu. Onlar dağın şərq tərəfindən sürətlə şəhərə yaxınlaşırdılar. Pulemyotçular hələ atəş açmağa başlamamışdılar. İnsanlar sığınacaq tapmaqda çətinlik çəkirdilər. Birinci təyyarənin kölgəsi şəhərə girən kimi pulemyotun gülləri təyyarənin gövdəsinə dolu kimi yağmağa başladı. Bu dəfə pulemyotlar səmanı rus pilotları üçün cəhənnəmə çevirmişdilər. Hər tərəfdən amansız güllə yağışı yağırdı. İlk təyyarənin bu atəşdən yan keçməsi asan olmadı. Sanki səmada təyyarələr üçün güllə toru çəkilmişdi.

Birinci təyyarə amansız atəşə tutuldu və uçarkən təyyarədən qalın qara tüstü qalxdı. Qışqırıq səsləri ucaldı:

- “Təyyarəni vurduq... Təyyarəni vurduq...”

Camaatın qışqırıq səsləri şəhəri bürümüşdü. Bu cəhənnəmi görən növbəti iki təyyarə şəhərdən kənara çıxdı. Birinci təyyarə idarəetməni itirərək, tüstüləyərək sürətlə yerə düşürdü. İnsanlar gözləri ilə qəza yerini müəyyənləşdirib, oraya tərəf üz tutdular. Təyyarənin anbaan sürətlə düşdüyü yer qədim Ərk qalası idi. Camaatın qışqırıqları və həyəcanı sözlə ifadə oluna bilməzdi. Pulemyotların səsi hələ də eşidilirdi. Dəhşətə düşən insanların dodaqlarında uzun müddətdən sonra məmnunluq təbəssümü görülürdü. Bu təyyarənin vurulması xalqın müqavimət iradəsi və onun İran şahına, səriştəsiz hökumətinə və saray əyanlarına mənalı bir xəbərdarlığı demək idi. Bir müddət sonra təyyarə heyrətləndirici sürətlə köhnə Ərk qalasına çırpıldı və dəhşətli bir partlayışla alov içində gözdən itdi.

Günəş ağır sükutla son işıqlı şüalarını gecənin qara pərdəsinin yaralı sinəsinin üzərinə çəkməkdə idi. Dəhşətə düşmüş dağ sakinləri gecənin qaranlığında sabahkı gün barəsində müzakirə edirdilər. Qoca komandir əsgərləri

ilə birlikdə yaralı ilan kimi İran sərhədçilərinin Borno snayperlərinin nişangah torunun tələsinə düşmüşdü. O, Moskvadan yola çıxanda belə vəziyyətə düşəcəyini təsəvvür belə etmirdi. Onun qəlbi düşmənə qarşı böyük bir qəzəb və kin ilə dolu idi. Digər bir tərəfdən isə, düşmən hərbi dəstəsinin komandirini görmək arzusu baxışlarındakı boşluğunu yavaş-yavaş dolduran bir heyranlıq da yaradırdı.

Səhər tezdəndən etibarən kolonun körpünü keçməsi üçün çox səy göstərmişdilər. Komandir, körpüdəki əsgərlərin snayperlə vurulması və sursat çadırının partlaması nəticəsində çoxlu sayıda zabit və əsgərini itirmişdi. O, körpünün yaxınlarında dayandırıldıqları və hava qüvvələrindən kömək almaq istəməməkləri barəsində ordu qərargahına məlumat vermək istəmirdi. O, bütün hallarda körpüdən keçməyə qərar vermişdi.

Amma görünür ki, iranlı snayperlər də nəyin bahasına olursa olsun onun bu körpünün üzərindən keçidini əngəlləmək qərarında idilər. Qırx nəhəng T-35 tankı və iyirmi beş ədəd personal daşıyan maşın. Bu düşüncələrlə fikirə getmişdi. Yerindən qalxaraq qaşlarını düyünlədi.  O, uzaqlara baxırdı. Daha da dərin düşüncələrə daldı. Araz çayınının yanında, bir qayanın üstündə dincəlirdi.

Müharibə zamanı atdığı sonuncu gülləni düşünürdü. Bir neçə saat idi ki, tanklar körpünün arxasında dayanıb, keçməyi gözləyirdilər. İranlılar rus əsgərlərinə yalnız snayperləri ilə atəş açmışdılar. Bu isə onların ağır silahlarının və pulemyotlarının olmadığı demək idi.

- Tanklar səkkiz kolona bölünmüşdülər. Qoşunlar zirehli tankların arxasından keçməli idirlər. Lazım olan tək şey, kolonun körpünün o biri tərəfinə keçməsi idi.

Snayperlər piyadaların mühafizəsini təşkil etməli idilər. Onların qüllələrindən biri körpüyə baxır. Onu partlatmalı idilər.

- "Kolona hərəkət əmri verin. Qrupun zabitləri öz bölmələrinə tərəf irəlilədilər. Kolonda canlılıq və inqilabi ruh yaradılmışdı.  Təchizatı ən qısa zamanda maşınlara daşıyırdılar ki, toplar ən yaxın mövqeyə yerləşdirilsinlər.

Tanklar işə salındı və hərəkət etməyə hazır vəziyyətə gətirildi. Sergey Trofimenkonun hərbi kolonunun dəyişdirilməsi körpünü fəth etmək üçün yenidən zərbə endirməkdə ciddi əzmkarlıq nümayiş etdirdi.

Cənab, qüllədə kamuflaj olunan snayperlərdən biri müəyyən edildi. Ehtimal ki, sursat çadırını da o partladıb. Qoca təbəssümünü nümayiş etdirməsə də, xəbərdən razı qaldı. Onun üçün bişirilmiş böyük bir donuz ətini həvəslə yeməyə başladı. Bütün əsgərlər günorta yeməyini çətin şəraitdə və bir az yeməklə keçirməyə məcbur idilər. Lakin, nahar vaxtı çatanda komandir döyüş meydanının ortasında çadırını hər cür yeməklər olan restorana çevirtdirirdi. Tanklar hərəkət etməzdən əvvəl biz ilk növbədə snayperləri zərərsizləşdirməliyik.

Gənc zabit bunu dedi və hərbi ehtiramla çadırdan çıxdı. Snayperlərin tüfəngləri durbinli idilər. Bu durbinlərdən çox az adam sağ qala bilərdi. Sərhədçilərin hər üçü gözdən yayınaraq dağın başında yerləşən qayalarda pusqu qurmuşdular.

Silahlar atəş etmək üçün hazır idi. Hədəf ən yaxşı atəş mövqeyində idi. Qüllədə bir əsgər var idi. O, uzanmış vəziyyətdə durbinin nişangahından həsir döşəyin altından uzanan Borno tüfəngini nişan almışdı. Hədəfin qaçmağa imkanı yox idi. Üçüncü atəşə qədər vurulacaqdı. Birinci mərmi qüllənin metal dirəyinə dəydi və iki dəmirin aşınmasının titrəməsi ilə gurultulu bir səs dağın arasında əks-səda verdi. İkinci mərmi isə daha da yaxınlaşmışdı. Lakin o, yenidən qülləyə dəydi. Adətən ilk üç atış silah nişangahının baxış sahəsini müəyyən etmək üçün siqnaldır. Çavuş Seyid Məhəmmədin yerləşdiyi qülləyə dəyən güllələrin səsini eşitdi. Onlar Seyid Məhəmmədin ruslar tərəfindən aşkar edildiyinə başa düşdülər.

- Qeytəran! Məhəmmədə deməliyik ki, mövqeyini dəyişsin. Bu atılan güllələr qülləyə dəyir. Onlar işarə atışlarıdırlar. Qaytaran təzəcə güllə dolu bir qutu sursat gətirmişdi və daraqlara doldururdu.

- Çavuş, bu şərəfsizlər boşuna güllə atırlar. Bizi çaşdırmağa çalışırlar.

Bu vaxt güllə qüllənin şüşəsinə dəydi və tüstü havaya qalxdı. Toplar atmağa başlamdılar. Pulemyotlar üzbəüz mövqelərə tərəf atəş etdilər.

Gördün Qeytəran! Toplarla, pulemyotlarla diqqətimizi yayındırırlar. Hədəf Məhəmmədin qülləsidir. Tez özünü qüllənin yanına yetir. Elə et ki, səni görməsinlər. Məhəmməd tez yerə enməlidir.

Elə bu anda top güllələrinin və pulemyotun atəşinin səsi ilə Məhəmmədin ürək ağrıdan naləsi bir-birinə qarışdı. Çavuş dərhal qülləyə tərəf süründü.

Onların snayperlərinin diqqətini yayındırmaq lazımdır. Mən Məhəmmədi qüllədən endirməyə gedirəm. Vəziyyətin ciddi olduğunu anlayan Qeytəran nişan alaraq, tərpənən bütün hədəflərə atəş açmağa və ilk güllədən onları məhv etməyə başladı.

Çavuş!... Qüllənin başına çıxsan, vurulacaqsan. Gecəyə qədər gözləməliyik. Çavuş silahlanarkən Qeytərana tərəf dönüb dedi:

- "Abdullaha de ki, qabağındakı dağa atış açsın. Mən Məhəmmədi yerə endirməyincə atəşi dayandırmayın. Siz də öz mövqeyinizi dəyişin.Bu topçuların öldürülməyini istəyirəm."

Çavuş bunu dedi və tez oradan uzaqlaşdı. Bir neçə dəqiqə ərzində çavuş rus zabit və əsgərlərinin heyrət dolu baxışları önündə qüllənin pilləkənlərindən sürətlə yuxarıya dırmaşırdı.

Abdullan körpünün üzərini, düşmənin müşahidə qülləsini və pusqu mövqeyinə çevrilmiş bütün mövqelərini amansızcasına atəşə tuturdu. Qeytran isə dağın şərq tərəfinin zirvəsinə çatmışdı və düşməni qıraqdan ovlayırdı.

Dağlara dolu kimi yağan bu qədər güllələrin qarşısında İran sərhədçilərindən birinin böyük cəsarətlə qüllənin üzərinə çıxaraq, snayperi xilas etməyə getdiyinə heç kəs inana bilmirdi. Seyid Məhəmmədə güllə dəymişdi. Onun yarası işğalçıların Məhəmmədə qəzəbinin zəhəri idi. Onun vəziyyəti hər an daha da pisləşirdi. Məhəmməd qalanın dəmir pillələrindən ona tərəf yaxınlaşan ayaq səslərini hiss etdi.Güllələr aramsız yağırdı.

Abdullah və Qeytəran düşmən snayperçilərinin diqqətini dağıtmışdılar. Çavuşun qəribə bir əhval-ruhiyyəsi var idi. Dodağının altında nəsə deyirdi. Ayaqlarına və qollarına güc-qüdrət gəlmişdi. O, pilləkənləri sürətlə yuxarı qalxırdı. Hər an başına, sinəsinə və ya ayaqlarına güllə dəyə bilərdi. Bir neçə top gülləsi qüllənin yanına düşmüşdü. Bütün rus əsgər və hərbiçilərinin diqqəti mühafizə qülləsinə doğru yönəlmişdi. Seyid bilirdi ki, çavuş onun köməyinə gəlir. O, inildəyərək, çavuşun sağ-salamat onun yanına yetişə bilməsi üçün Ayətəl-kürsi oxuyurdu. Böyründəki yaradan şiddətli qan axırdı. O, bəzən ayədəki sözlərin yerini səhv salırdı.

Bədəninin soyuduğunu hiss edirdi. Tüfəngi qolunun kənarına düşmüşdü. Gözləri qaralırdı. Susuzluq onu çox qəfil yaxalamışdı. Qərara almışdılar ki, əsgərlikdən sonra, iki il əvvəl nişanlandığı əmisiqızı ilə evlənsin. Son zamanlarda əsgərliyə getmək məcburi idi. Ona görə də əsgərlik sözü əvəzinə - məcburi sözü işlədilirdi. Anası hər dəfə məzuniyyətə gedəndə and içirdi ki, bir az da qalıb toy edəcəyik, sonra gedək. O hər dəfə məzuniyyətə gedəndə anası and verirdi ki, bir az da qalıb toy edib, sonra getsin. Amma bunlar məcburi deyildi. Sərhəd çox daha önəmli idi.

Mənim bütün təlaşlarım və uzun keşiklərimin hamısı, hər hansı oğrunun və ya yağının sərhədimizdən keçməsinin qarşısını almaq üçündür.

Bədənindən çoxlu qan axdığını bilirdi. Çavuş üçün narahat olduğundan, ucadan qışqırıb, onun səhhəti barədə xəbər alaraq, qüllənin başına gəlməsinə mane olmaq istəsə də, nəfəs ala bilmirdi. Abdulla da düşmənin hərbi kolonuna amansızcasına atəş açmağa davam edirdi. Seyid Məhəmməd və çavuş üçün çox narahat idi. O, dünən gecə Qeytəranın köməyi ilə döyüş sursatı məsələsini həll etmişdi və artıq onların sabah gecəyə qədər döyüşmək üçün kifayət qədər sursatları var idi.

Güllələr gah çavuşun ayaqlarının altından, gah da qorxunc fitlə qulaqlarının dibindən keçirdi. Amma iranlı sərhədçinin əsgərini xilas etmək

cəsarəti tüfəngləri qülləni nişan alan rus hərbiçi və əsgərlərinin heç biri tərəfindən başa düşülə bilməzdi.

Zabitlər və əsgərlər zarafatla bunu dəlilik hesab edərək, ucadan gülür və atəş açmağa davam edirdilər. Qoca komandir isə, öz yoldaşını xilas etmək üçün güllələrin arasından şücaətlə addımlayan cəsarətli gənci qaşlarını çataraq və böyük bir diqqətlə izləyir və zehnində ona qarşı olan hörmət və ehtiramı getdikcə daha da artırdı.

Döyüş meydanı qəribə idi. Üç yüz əsgər, bütün növ zirehli maşınlar, tanklar və qabaqcıl texnikanın olduğu bir hərbi kolon İran sərhədçilərinin qəribə oyunu nəticəsində yerlərində ilişib qalmışdılar.

"Müseyib! Sənin yaxşı boy-buxunun var. Hürrün rolunu sən oyna!"

Qülləyə çatanda yerin qan ilə büründüyünü gördü. Güllə Seyid Məhəmmədin böyrünə dəymişdi. Bədəninin iki tərəfindən qan axırdı.

- Çavuş onun başının üstündə durdu. Məhəmmədin gözləri yarı açıq idi. Çavuşu görən kimi gülümsündü və dedi:
- Gəldin çavuş?!

O, son sözünü sanki saatlarla komandirini gözləyirmiş kimi dedi. Onun üzü ağappaq idi. Çavuş həmin anda Məhəmməddən bunu eşidəcəyini gözləmirdi.

- Çavuş, yanınızda olduğum bütün müddət ərzində sizə sual verməyə imkanım olmadı. O, qollarını çavuşun boynuna dolamışdı. Çavuş dedi:

- De oğlum. Nə sualın var?

Güllələr yağış kimi yağırdı. Gözətçi qülləsindən kənarı sanki cəhənnəm idi. Elə bil dünyanın sonu idi.

- Deyin görüm. Necə oldu ki, kəndinizdə şəbehxanlıq mərasimində sizi Hürr olaraq seçdilər?
- Çavuş tüfəngini önünə qoymuşdu. Əli hələ də qüllənin qapısının çərçivəsində idi.
- Qoy sağsalamat aşağıya enək sənə hər şeyi danışaram. İndi vaxtı deyil!

- Yox çavuş! Daha mənim qüllənin aşağısına getməyə yetəcək qədər nəfəsim yoxdur.
- De görüm, niyə səni Hürr seçmişdilər?

Onun səsi getdikcə daha da zəifləyirdi. Çavuş onun kürəyinin yaş olduğunu hiss etdi. Axırıncı dəfə Seyid Məhəmmədi kürəyinə alaraq, qüllənin pilləkənlərinə doğru irəlilədi. O, sağ qalmağın mümkün olmadığını bilirdi. Onun buraya qədər çatması və Məhəmmədi çiyninə alması isə uca Allahın bir lütfü idi.

- Ya Hüseyn!

Qoca komandir fateh, lakin yaralı bir canavar kimi dağın yuxarısında durbininin şüşəsindən bir iranlı sərhədçinin ölümü heçə saymasına tamaşa edirdi. Əsgər yaralı əsgər yoldaşını öz çiyininə yükləyərək pilləkanları aşağı enirdi. Pulemyotların, topların səsi, dağlarda olan dəhşət artıq mənasını itirmişdi. Zaman sürətlə keçirdi və hadisələr zamanından tez yetişirdi.

- Uşaqlıqdan boyum uzun idi. Özüm isə arıq idim. Məscidimizin mirzəsi Həbib ibn Məzahirə bənzəyirdi. Hürr yox idi. Yəni bir il idi ki, bizim xoş səsli və Hürrə bənzəyən ağsaqqalımız dünyasını dəyişmişdi.

- Müseyib, sənin yaxşı boy-buxunun var. Atdan yerə enib İmam Hüseyinin (ə) ayağına düşmək ancaq sənə yaraşar.

Bu sözü Mirzə mənə Məhərrəm ayının ilk günü demişdi.

Artıq güllələrin səslərini eşitmirdilər. Bütün bədəni tərləmişdi. Pilləkan bitmək bilmirdi. Hardasa ayağı burulmuşdu. Ayağındakı ağrısı onu bir neçə dəqiqəliyinə dayandırmışdı. Seyid Məhəmmədin ağırlığı və sürətlə gedişi onun ağırlığını bir neçə dəfə də artırırdı.

- Eşidirsən Məhəmməd?! Mənə qulaq as pəhlivan! Ara – sıra Məhəmməd tərpənir və çavuşun qulağına nəsə bir söz deyirdi.

  “Hürrün rolunu ifa etmək çox çətin idi. Amma mən Hürr rolunu çox əvvəldən sevirdim. Həmişə Hürr son anda oğlu və səhabələrindən biri ilə İmamın ordusuna tərəf qayıdanda qəribə an idi, Məhəmməd...”

Çavuşun səsi tutulurdu. O, qarşısındakı pilləkənlərin gözləri yaşlı və ayaqları titrəyən halda enirdi. Pilləkənlər hələ də bitməmişdi. Ayağındakı ağrı onu narahat edirdi. Məhəmmədin səsi çıxmırdı. Çavuş onun böyründən axan suyun tər ya qan olduğunu müəyyən edə bilmirdi.

Məhəmməd, Məhəmməd... O, cavab vermirdi. Əlləri hələ də isti idi. Qüllənin sonuna çatmağa sadəcə bir neçə pillə qalırdı.

- “Həmişə Hürrün atdan enib özünü imamın (ə) ayaqlarının altına atdığı səhnə yetişəndə camaatın arasından anamın naləsini eşidirdim:
- “Canlarımız ayağının altında qurban olsun ya Hüseyn!

Qadın və kişilərin fəryadları eşidilirdi. Onlar anası ölən uşaqlar kimi zarıldayaraq ağlayırdılar.

- “Məhəmməd Hürr olmaq çox çətindir. Eşidirsən əsgər?!
- Göz yaşları bütün yanaqlarını islatmışdı. Gözləri qızarmışdı və dilinin altında Hürrün rövzəsini oxuyurdu. Qüllənin aşağısına çatanda özünü qayanın arxasına çatdıraq, Məhəmmədi arxası üstə yerə uzatdı. Onun yarı açıq gözləri və üzü sanki ay kimi parlayırdı. Çavuş onu heç vaxt belə görməmişdi. O, Məhəmmədin başını qucağına aldı.
- Məhəmməd, … Seyid Məhəmməd!

Qurumuş dodaqları yavaşca tərpənirdi. Dodaqlarının quruması və yorğunluqu çavuşu çox yormuşdu. Hərdən güllələr onun yanındakı qayalara dəyib, toz qaldırırdı. Onun ayağına güllə dəymişdi. Yaranın qanı dayanmış və laxtalanmışdı. Çavuş Məhəmmədin susuz olduğunu bilirdi. O, cansız dodaqlarını yenidən tərpətdi. Məhəmmədin suyu yox idi. Qucağında tutduğu son dəqiqələrini yaşayan əsgərinə bir qurtum da olsa su gətirmək istəyirdi. Məhəmmədin dodaqları bir daha tərpəndi. Çavuş hiss etdi ki, o nə isə demək istəyir. Bəlkə də bu ona su verməkdən daha da vacib idi. Çavuş başını onun qulaqlarına daha da yaxınlaşdırdı.

Məhəmmədin yar açıq gözləri öz zastava komandirinin nəmli gözlərinə dikilmişdi. Bütün qüvvəsini cəmləmişdi ki, ona son sözünü çatdıra bilsin.

- “Biraz da yaxınlaş. Biraz da yaxınlaş. Yaxın gəl! Məhəmmədin nəfəsi kəsilirdi. O artıq sinəsindən nəfəs alırdı.
- “Ç.ç.ç Çavuş! Hürr oldum?

Onun başı ixtiyarsız halda çavuşun qucağına düşdü və sərin bir meh əsməyə başladı. Zəmanə bütün amansızlığı ilə çavuşu əsgərləri ilə tək qoymuşdu.

- Güllələrin amansız uğultusu, topların gurultusu Aşura gününün günorta əzanının səsi ilə bir-birinə qarışmışdı. Atların ayaq səsləri hamını özündən çıxarmışdı.
- “Canlar sənin qədəminə qurban olsun ya Hüseyn!

O, iri daş parçalarından ibarət divara söykənmişdi. O, dağlarda qürub etməkdə olan qırmızı günəşi seyr edirdi.

- Cənab! İndiyə qədər Təbriz səmasında iki təyyarə məhv etmişik. Təyyarələrin bombardmanı nəticəsində olan can təlafatı çoxdur. Ordunun kazarması üç dəfə bombardman edilib. Marağa hərbi hissəsini də bombalayıblar. Onların piyada qüvvələrindən hələ də xəbər yoxdur. Ərdəbildə əhali Rusiyanın Səkkizinci Diviziyasına müqavimət göstərdilər. Culfa kəndlərindən də xəbərlər çatmaqdadır ki, sərhəddəki körpünün üstündə sərhədçilərlə işğalçı ruslar arasında ağır döyüşlər gedir.

Bu jandarma zabitinin Mirzə Sadiqin evində şəhər ağsaqqallarına verdiyi xəbərlər idi. Ərazidə yaranmış ağır vəziyyət hər kəsi narahat edirdi. Quru müharibəsi hələ başlamamışdı. Təyyarələr atış məsafəsi daxilində olan hər yerdə görülürdülər. Onlar kazarmaları, xalqın toplaşdığı yerləri, xəstəxanaları və hətta məscidləri belə bombalayırdılar. Bu uçan nəhəngləri məhv etmək və döyüşə davam etmək üçün münasib silahlar mövcud deyildi.

Ağalar! Gec-tez sovet ordusu şəhər darvazalarının arxasına çatacaq. Biz bir neçə dəfə ruslarla müharibə aparmışıq. Hər dəfə ev əvvəlkindən daha çox əziyyət çəkmişik. Amma bu millətin zəif olduğu demək deyil. Daha doğrusu, mərkəzi hökumətin zəif olmaması, sarayın Təbrizə yardımçı ordu

göndərməkdən qorxması kişi və qadınlarımızı son nəfəsə qədər müqavimət göstərməyə vadar edib. Əgər hətta məğlub olmuş olsaq belə, bu özü də qələbədir.  Millətimizin, gənclərimizin qanı iftixarla yerə tökülür və hamımız bilirik ki, tarix bizim yadellilərə qarşı son gülləmizə qədər müqavimət göstərdiyimizi yazacaq.

Bizim məktəbimiz Əba Əbdullah Hüseyn (ə) məktəbidir. Bizim üçün hər yer Kərbəla, hər gün Aşuradır.

Necə ki, imam Hüseyn (ə) hicri 61-ci ildə bütün varlığını İslam dininə və onun izzətinin qorunması yolunda fəda etmişdirsə, bu gün biz də dinimizi, şərəf və ləyaqətimizi qorumaq üçün ağamız Hüseynin (ə) məktəbinə əməl edərək Aşura hadisəsini yenidən canlandıracağıq. Qoy tarix yazsın ki, mərkəzi hökumət və şah sarayı Azərbaycan xalqı üçün bu təlatümlü həyatda kufəlilərdən min dəfə betər səriştəsiz idi. Qorxaqlıq və ikiüzlülük damğasını arxadan bu müsəlman xalqının ürəyinə sancdılar...

Mirzə Sadiq həyəcanla millətə sadiq qalan və qaçmayan böyük alimlər, tacirlər və hökumət nümayəndələri arasında yüksək səslə çıxış edirdi...

Mirzənin xütbəsi qeyri-adi bir duyğu və hisslərə malik idi. Mirzə Sadiq il ərzində müəyyən günlərdə minbərdə moizə edirdi. O, İmam Sadiqin (ə) şəhadət günü bazarda, Aşura gecəsi isə əzadar dəstələri arasında olub minbərdə  moizə edirdi. Üzündən kədər yağırdı. Onun səsinin qüdrəti və təsiri Əhli-beyt (ə) zikri ilə qarışan sözlərlə onu dinləyənlərin qəlbini titrədirdi. Hər iki tərəfdə də armudu stəkanlarında çay verilirdi. Qonaq olanda ağa qapının girişində olan stulda əyləşirdi. Evin gündəlik adətlərini qulluqçular da bilirdilər.

Bütün qonaqların çayları paylandıqdan sonra, nəhayət, ağanın çayını qabağındakı nəlbəkiyə qoymalıdırlar. Qonaq otağının sonuna qədər adamlar oturmuşdular. Mirzənin çıxışından sonra Hacı Rəsul növhə oxudu. İnsanlar illərdir ki, onu məlahətli səsi ilə tanıyırdılar. O, dərin bir nəfəs aldı və oxumağa başladı:

-“ Əssəlamu əleykə ya Əba Əbdullah ...

Sanki insanların boğazlarında illərin qəhəri var idi. Əzadarlıq məclisi başladı. Qadın və kişilərin fəryadları bir-birinə qarışmışdı.

Yadda qalan və tarixi bir gün idi. Bəlkə də İmam Hüseynin (ə) son əzadarlıq mərasimi idi ki, məclisdə bütün mücahidlər, əsgərlər, sədaqətli zabitlər, uzaq və yaxın qəsəbələrin sakinləri bir yerdə nəfəs almadılar mərsiyəçi Hüseyn Hacı Rəsulun növhələrinə qulaq asırdılar. Allahdan başqa heç kimin sabah nə baş verəcəyindən xəbəri yox idi. Müharibə müharibə idi. Onun əsası qətl və qarət idi.

Kim bilə bilərdi ki, silahlı kişilər və qadınlar Mirzənin evinə vidalaşmağa toplaşacaqdılar?! Kim yaşayacaq, kim əsir olacaq?! Amma Mirzə Sadiq və hər kəs bilirdi ki, bu gün imam Hüseynin (ə) qətliamını xatırlamaq onların qanını daha da coşduracaq. Onlar tarixin din və vətən qarşısında sınağından çıxan ən sadiq yoldaşlarından idilər.

- Əsgər Abdullah Şəhriyari!
- Bəli cənab.

"Sizin də adınız Culfa sərhəd zastavasının əsgərləri arasında yazılıb. Əşyalarını və ayaqqabılarını da götürüb, qabaqdakı maşına min."

O, ailənin böyük oğlu idi və daha sonra iki kiçik qardaşı və üç bacısı var idi. Anası dünyasını dəyişmişdi. Anasının ölümündən sonra atasına kömək edirdi. Daha atasının səbri və hövsələsi qalmamışdı. Mal-qara və qoyun saxlamaq, torpaq şumlamaq daha çox Abdullanın işi idi. Elə vaxtlar da olurdu ki, işi bitirib axşam evə qayıdanda atasının arxasınca stul daşıyırdı. Ağa evə gedərkən bir neçə dəfə oturardı. Əvvəllər daha qıvraq və sağlam idi. Oturanda deyərdi:

- "Zamanın nəfəsimi belə kəsəcəyini bilmirdim, oğlum!"

Ailəsi üçün çox narahat idi. Qızları balaca, oğlanları isə dəcəl idilər. Onlar Quran öyrənirdilər. İnsanlar ümumiyyətlə xoşbəxt deyildilər. Yoxsulluq hamının süfrəsində qonaq idi. İş və zəhmət, bu səfalətdən xilas olmağın sərmayəsi idi.

Əkini suvaran zaman onu da tutmuşdular. Bundan əvvəl jandarmaların kəndə gələcəyini xəbər verirdilər. Oğlanlar isə hərəsi bir yerdə gizlənirdi. Yadındadır ki, onu məcburi olaraq ordunun hərbi kazarmasına göndərmək üçün maşına mindirdikləri zaman, jandarma zabitindən ona bir ay vaxt verməsi üçün yalvarmışdı. " İndi biçin mövsümüdür... Sizi and verirəm, hər kimə inanırsınızsa ona. Qoyun məhsulu biçim. Sonra özüm könüllü olaraq gəlib sizə müraciət edərəm ki, məni əsgərliyə aparın.

Atam tək işləyir!...

Buna cavab olaraq jandarma zabitinin təhqirləri, yumruq və təpikləri hər zaman acı xatirə kimi ruhunu və beynini narahat edirdi. Əşyalarını yerdən götürdü, yeni aldığı qaloşunu qucaqladı və camaatın arasından keçdi. Fikiri hələ də qoca atasının, tək qalan bacı və qardaşlarının yanında idi. Məcburi qaydada əsgərliyə gəlməsinə baxmayaraq, sərhəd zastavasında yerləşdikdən sonra yoldaş ola bildiyi ilk şəxs çavuş idi. O, çavuşa ailəsinin çətin vəziyyətdə olduğu barədə danışmışdı.

Çavuş mərkəzdən icazə almadan cəsarətlə ona bir həftəlik məzuniyyət verdi ki, qayıdıb məhsul biçinini bitirsin. Çavuşun mərdliyini gördüyü ilk andan etibarən onu böyük qardaşı kimi görərək, onunla səmimiyyətini daha da artırmışdı. Onun boyu balaca olsa da, cəld və qoçaq oğlan idi. O, anbar otaqlarının birində təndir düzəltmişdi və avtobus zastavanın qabağına gələndə onun təzə və dadlı çörəyinin qoxusu həmişə yolu bürüyürdü. Avtobus sərhəd zastavasının qabağına çatanda ondan aşağıya düşən yeganə əsgər özü idi. Zastavada heç kim yox idi. O, zastavanın ətrafını və bütün otaqlarını gəzərək yorulub, halsız vəziyyətdə bayraq dirəyinin yanındakı səkinin kənarında oturdu.

Elə ki, istəyirdi rahat otursun qəfildən bir səs eşitdi. Hər tərəfi sükut bürümüşdü. Elə farağat durmuşdu ki, sanki arxasından gələn səsi axtarırdı.

- Farağat əsgər...! Qəfildən boyununun arxasından sillə vurulan balaca uşaqlar kimi səsin haradan gəldiyini anlamağa fürsət tapmadan, boğçasını və ayaqqabılarını yerə atıb farağat durdu.
- - Adın nədir, əsgər...!?
- Əsgər Abdullah Şəhriyari cənab!

Daha sonralar Çavuş, Qeytəran və Məhəmməd bir-birləri ilə zarafat edərkən onun buraya birinci gündə farağat durmağını deyib gülürdülər. Gecə ruslar hücuma keçəndə çavuş üzünü Abdullaha tutub dedi:

- " Abdullah ailənin sənə ehtiyacı var. Atan təkdir Seyid Məhəmməd! Mən və Qeytəran burada qalarıq. Amma yaxşısı budur ki, sən qayıdasan.

Çavuş Abdullahın rədd cavabını eşidəndə, öz xahişini daha da sərt şəkildə və əmr formasında təkrarlamışdı.

Əsgər, kəndinə qayıt... Hələ ki, sənin xidmət etməyinə ehtiyac yoxdur. Bu dəfə hamı adətən Abdullaya xas olan qəribə bir reaksiya ilə üzləşdi. Hərbi ehtiramla, ilk gün görünmədən qüllənin başından çavuşun ona farağat verdiyi yerdə, bayraq dirəyinin qarşısında dayandı və ucadan dedi:

- Cənab, mən Culfa zastavasında məcburi qalmağım üçün son günə qədər sizdən məzuniyyət almayacağam.

Güllə və topların səsi bir an belə dayanmırdı. Ayağına dəyən güllə çox qanayırdı və çəkmələrini batırmışdı. Bir neçə top gülləsi pulemyot qülləsinin bir az yaxınlığında yerə dəydi. Top güllələrinin qülləyə doğru yönəlməsi, Abdullanı narahat edirdi. Səs çox idi və onun qışqırıqları qüllənin başına çata bilmirdi.

Bu mövqedə o, qüllənin yuxarısına çıxa bilməzdi. Döyüş çox şiddətli idi. Güllələrdən biri qüllənin aşağısına dəymişdi. Qüllə isə hələ də sağlam idi. Abdullah düşməni amansızcasına atəşə tuturdu. Güllələr sanki birbaşa qülləyə tuşlanmışdı. Çavuş Abdullanı yerə düşürmək üçün mübarizə apararkən, top mərmilərindən biri onlara çox yaxın məsafədən keçdi və zastavanın sıra meydanının ortasına düşdü. Partlayışın dalğası onu olduğu mövqeyindən

götürüb, daş divara çırpdı. Başı və sinəsində şiddətli ağrılar hiss etsə də, hələ də buna dözə bilirdi.

O, tüfəngini götürdü və yerdən qalxmağa çalışarkən, ikinci top gülləsi ilə qüllədə olan pulemyotun da səsi kəsildi. Səs o qədər güclü və gurultulu idi ki, bir anlıq onun gözləri qaraldı, görmə qabiliyyəti bulanıqlaşdı. Qüllə otağı partladılmışdı. Bir az irəlidə pulemyotun parçaları yerə düşmüşdü.Hadisə çox sürətli baş vermişdi.

O, hadisəni tam dərk etməsə də, qəflətən fırtına kimi guruldayan külək bütün diqqətini yanında top gülləsi partlayan pulemyot qülləsinin üstündə olan Abdullaha yönəltdi. Az da olsa, bir ümidlə özünü qayadan kənara çıxardı və Abdullah olan tərəfə doğru tələsdi. Qüllənin otağından heç bir iz qalmamışdı. Yanğın bütün qülləni bürümüşdü. O an heç bir məna kəsb etməyən gözlənti bütün otağı gəzirdi. Abdullahı görmək ümidi ilə gözləri hər yeri axtarırdı. Amma o bilirdi ki, Abdullanın pulemyotunun səsi son ana qədər, top açılana kimi eşidilirdi.

Birdən Abdullahın ətrafda parçalanmış bədənini gördü. Sadə və səmimi kənd uşağı, dərdli dost... onun üçün nə qədər də darıxmışdı. Kiçik və mehriban gözləri olan səmimi və məsum bir üz…Abdullahın parçalanmış bədəni çölə səpələnmişdi. Komandir bilmirdi ki, onun ölümü ilə dünyanın başına yıxılmasımı, yoxsa Abdullanın əlini qucağına sıxıb laylay oxumaqmı onun üçün daha dərdlidir. O arıq və sevimli bədəndən heç bir əsər-əlamət qalmamışdı. Onun yanına çatanda əsgərinin bədənində komandirini görəndə hərbi salam vermək üçün başının olmadığını gördü. Qəzəblənərək silahını yorğun və yaralı bədəninə sıxdı. Qürurlu və uca bir səslə qışqırdı:

- Əsgər farağat! Vətənin izzəti üçün! Bu torpağın şərəf və namusunu qorumaq üçün…

Sergey Trofimenko dünyanın heç bir yerində komandirin öz əsgərinə belə hərbi ehtiram göstərdiyini görməmişdi. Amma durbininin şüşəsindən gördükləri onun üçün bütün hərbi təcrübəsi və həyatı qədər dəyərli idi. O, durbinini aşağı

endirərkən gözlərindən axan yaşları sildi və qalibcəsinə komandirinin onu təriflməsini gözləyən gənc zabitə ağır səs tonu ilə dedi:

- Hərbi kolonu hərəkət etmək üçün hazırlayın. Körpünü keçək!

Gecə düşmüşdü və düşmən atəşi şiddətini azaltmışdı. Komandirin əmri ilə kolon hərəkət etməyə hazır idi. Hər iki tərəf üçün də gün çətin keçmişdi. İranın pulemyotuları hərbi birləşmənin ağır itkilər verməsinə və bir neçə maşına ciddi ziyan dəyməsinə səbəb olmuşdu.Maşınlar yararsız vəziyyətə düşmüşdülər. Qoca komandir son dəfə qarşıdakı xəritəsini nəzərdən keçirirdi. Hələ də hərəkət etməyən maşınlardan, sökülməmiş çadırlardan bugünkü qələbələrinin sevincini yaşayan əsgərlərin gülüşlərinin səsi eşidilirdi. Təbrizdə iki bombardmançı təyyarənin məhv edilməsi xəbəri komandirə məruzə edilmişdi.

Qoca komandir İran sərhədçilərinin qırx səkkiz saatlıq müqavimətini nəzərə alaraq, şəhərlərin, xüsusən də Təbrizin necə ciddi müqavimət göstərəcəyi barədə dərindən düşünürdü. Yeni şəraitdə Təbriz şəhərinə doğru irəliləməsi və oranı necə işğal edə biləcəyi barədə planlar qururdu.

Təcrübəli və qoca komandir belə planlaşdırırdı ki, Qırx yeddinci diviziyanın piyada qoşunları Təbrizin kənarına və Dənd dağının arxasına çatana qədər, hava qüvvələri kazarmaları, hərbi bazaları, səngərləri, polis postlarını və əhalinin toplaşdığı yerləri bombardman edərək, onların Təbrizi rahat işğal etməsinə şərait yaratmalı idilər.

- Cənab komandir! Düşmən tərəflə yenidən toqquşmaq ehtimalı var. Öncülər irəliləyirlər. Yaxşı aylı gecədir. Düşmənin hər hərəkətini izləyirik. Bu yaxşı işıqlandırmadan istifadə edə bilərik. Hərəkət əmri verin!

Gecənin qaranlığından və ay işığının gecə dağda yaratdığı kölgədən istifadə edən çavuş özünü körpüyə çatdırdı. Qeytəran hərbi kolonun qabağında dayanmaq üçün sursat daşıyırdı. Çavuş Seyid Məhəmməd və Abdullahın cəsədlərini Qeytəranın da köməyi ilə yolun kənarına aparmışdı. O, ayağının yarasını parça ilə möhkəm bağlamışdı. Bədənindən çoxlu qan axdığından ayaq üstə durmaqda çətinlik çəkirdi. Qaranlıq və görmə məsafəsinin məhdud olması

səbəbindən qərara almışdılar ki, döyüş mövqeyi körpünün ən yaxın nöqtəsinə doğru dəyişsinlər. Abdullah və Məhəmmədin də tüfənglərini doldurmuşdular. Qalan döyüş sursatı sadəcə bir qutu patron və bir neçə qumbara idi.

- Ruslar gec-tez buradan keçəcəklər. Bunu bir neçə saatdan çox yubada bilmərik. Sursatlarımız tükənmək üzrədir. Bu fürsətdən istifadə edərək özünü kazarmaya çatdır və kömək gətir.

Qeytəranın sol çiyninə güllə dəysə də, sümüyünü deşib keçmişdi. Yarasının üzərinə barıt tökərək, qanaxmasını dayandıra bilmişdi. Amma çiyini çox ağrıyırdı. O, bir əli ilə silahını götürərək dedi:

- Çavuş, əgər onlar kömək göndərsəydilə, bu zamana qədər gəlib çatmışdı. Tağım Qeytəranı uzaqlaşdırmağa çalışırdı və onu kazarmaya göndərməkdə israr etməsi bəhanədən başqa bir şey deyildi. Bilirdi ki, Qeytəranın arvadı və bir neçə uşağı var və hamısı səbirsizliklə onun yolunu gözləyirlər.

- Ola bilsin, özünlə bir dəstə əsgər gətirərək, heç olmasa onların sürətini azaldarsan! Bu tərəfə çatsalar, heç kimə rəhm etməzlər. Maşınların səsini eşidirsən... Onları işlək vəziyyətə gətiriblər ki, gəlsinlər. Get daha yubanma!

Qeytəran gedib - getməməkdə tərəddüd edirdi. Qəribə bir gecə idi. Baş verənlər isə daha da qəribə idi. Zaman tez və tələsik keçirdi. Çavuş son anda Qeytəranı geri qayıtmağa razı sala bildi. Silahsız və tənha komandir əlbəyaxa döyüşə hazırlaşırdı. Bu elə bir savaş idi ki, sonralar bir ölkənin tarixndə dastanlar yaradacaqdı. "İki əsgər və bir sərkərdə" dastanı. Qeytəran qəmli və yaralı bədənin yavaş-yavaş sürüyərək sərhəd zastavasından uzaqlaşırdı. Qeytəran İran sərhədçilərinin mərdlik və şücaətlə qırx səkkiz saatlıq şiddətli mübarizəsinin hekayəsini nəql edə biləcək olan yeganə şahid idi.

Qeytəranın susamış boğazında düyünlənən nifrət sinəsindəki danışılmamış həmin qəribə tarixi povest idi. Qeytəran dağda atılan ilk güllənin səsindən bilirdi ki, burada kişilərin əlləri tətikdədir ki, körpünü keçməyə kimsə cəsarət edə bilməsin. Həmin güllə səsi isə ədalətsiz və qeyri-bərabər olan bir

müharibənin başlanması demək idi. Körpünün o tərəfində olan hərbi kolon hər növ döyüş təchizatı ilə, bu tərəfində olan kişi isə öz inancı ilə dayanmışdı.

Körpünün ortasına qədər gələn birinci tank bir neçə güllə atıldıqdan və sürücüsünün yaralanmasından sonra hərəkət etməyi dayandırdı. Tankın arxasınca gələn piyada əsgərlər cəld şəkildə körpüdə mövqelənmişdilər. Onlar gecənin qaranlığında güllələrlə üzbəüz gəlmişdilər. Güllələr pərakəndə şəkildə körpüyə dəyirdilər. Piyada əsgərlərin açdığı atəş ilə tankın yaralı sürücüsü öz yerini digər sürücü ilə dəyişdi. Tank yenidən hərəkətə keçdi.Komandir əmr etmişdi ki, tankı silahlandırıb hazır vəziyyətə gətirsinlər. Döyüş özünün ən şiddətli həddinə çatmışdı. Güllələr amansızcasına və uğultu ilə yağmaqda idi. Hürr döyüş meydanına atılmaq üçün izin almışdı. Anasının iniltisini aydın şəkildə eşidirsən:

- “ Canlar sənə fəda olsun ya Hüseyn! Övladım sizə layiq deyil ağa!

Ordu onun qanına susamışdı. O isə, başının üstündə dayanan İmamın nəvazişlə əllərini onun başına sığal çəkməsinə susamışdı. Atdığı hər güllə, zikr və ya Hüseyn şüarları ilə, dağı daha da canlandırırdı. Bütün gecə ayaq üstə dayanaraq ordusuz İran komandiri Kəlajur kəndinin Hürrünü seyr etdi.

Onun iki vəfalı əsgəri bir az aralıda əbədiyyət yuxusuna getmişdilər. Komandir müəyyən etməkdə çətinlik çəkirdi ki, əcəba Abdullah və Məhəmmədin çöhrəsi ayı gözəlləşdirib, yoxsa ay bu iki vəfalı dostu görmək üçün sərhəd zastavasına öz nurunu saçmaqdadır?!

Tank ilk atəşini açdı. Qarşıdakı hədəf yalnız bir səngər idi. Top gülləsi yerə dəyib alovlandı. Partlayışın təsirindən körpünün ətrafını bir anlıq işıqlandı. Sərhədçi hələ də sağ idi. Tanklar hələ də irəliləməyə cəsarət etmirdilər. İkinci top mərmisi körpüyə bir az da yaxın düşdü. Partlayış dalğasından körpü silkələndi.

Əsgərlər komandirin əmri ilə irəliləyirdilər. Snayper güllələri rusların ağır itkilər verməsinə səbəb olmuşdu. Bəzən atışma bir neçə dəqiqə dayanırdı və bu müddətdə çavuş tüfənglərini sürətlə doldururdu. qanaxma onun gücünü  sürətlə

azaldırdı. Amma onun imamla olan razılığı sonuncu gülləsinə qədər idi. Onun sonuncu gülləsini tüfənginə yerləşdirməsi, tank sürücüsünün atəş üçün topunu hazırlaması ilə eyni zamana təsadüf etdi. Tamamilə əldən düşmüşdü. Güllə yarası və dizlərindəki ağrı onu yerə yıxmışdı.

Düşmən bilirdi ki, ordusuz komandir artıq döyüşmür. Yaralı aslanın isə kaftar və canavarların qurbanı olması adət idi. Hər iki güllə də öz silahının lüləsindən aralanmışdı. Tankın topundan atılan dağıdıcı mərminin hədəfi təcavüz və işğal, Borno tüfəngindən atılan mərminin hədəfi isə azadlıq idi. Artıq sakitlik hökm sürürdü. Dağlardan güllə səsləri yüksəlmirdi.

Axırıncı güllələr döyüş meydanına ağır bir sükut yaymışdı. Komandirin səngəri yanırdı. Gənc zabit səngərdə məğrurcasına dayanıb komandir komandir Trofimenkonun əmrini gözləyirdi. Qoca yavaş-yavaş iranlı sərhədçinin səngərinə yaxınlaşırdı. Bütün əsgərlər durub iki komandirin üz-üzə gəlməsini izləyirdilər.

Al qanına boyanan iranlı çavuş misilsiz vüqarla tüfənginə söykənib dağlarla vidalaşırdı. 47-ci Sovet Diviziyasının komandiri Sergey Trofimenko heyrət və ehtiramla dolu baxışlarla ona baxırdı.

Bu şərəfli əsgərlər canlarından keçdilər!Komandir hərbi formasının üzərində olan qırmızı ulduzlarından birini çıxararaq, dedi:

- “ Bu vətənpərvər əsgərin ehtiramı naminə bu gecə bu körpüdən keçməyəcəyik! Sabah onların cəsədlərini öz adət-ənənələri əsasında və hərbi ehtiramla körpünün kənarında dəfn edin.

O, yavaş-yavaş səngərə doğru gedərək, qırmızı ulduzunu iranlı çavuşun sinəsinə yapışdırdı və alçaq səslə əsgərlərinə əmr verdi:

- “ Bu üç əsgərin qəbirlərinin üzərinə yazın…
- Öz vətənlərini müdafiə zamanı şərəflə canlarından keçdilər!
- Komandir! Qərb cəbhəsində Qırx yeddinci Diviziyanın komandiri Sergey Trofimenkonun teleqramı çatıb. İcazə verirsinizmi oxuyum?!

SSRİ Baş Qərargah rəisi bir neçə saat idi ki, qərb cəbhəsindən teleqram gəlməsi xəbərini gözləyirdi.

Dərhal oxuyun ...

- "Sovet Qırmızı Ordusunun 47-ci diviziyası İranın qərb sərhədində ağır döyüşdən sonra İran ərazisinə daxil olmağa müvəffəq olub. Qırx səkkiz saat döyüşdən sonra Təbrizdə yerli əhalinin və İran əsgərlərinin müqaviməti ilə qarşılaşdıq. Müharibə ağır keçdi və nəhayət, hava qüvvələri və hərbi texnikanın köməyi ilə Təbrizi fəth edə bildik. Düşmən komandirləri edam edildi, qalan silahlılar isə əsir götürüldü. Onlar Sibirdəki döyüş düşərgələrinə yollanırlar. Bu uğur münasibətilə böyük Stalini və sizi, komandiri təbrik edirəm.

Sergey…"





**هرچند آغشته شد به خون پیرهن ما**

**شد جامه سربازی ما هم کفن ما**

**شادیم ز جانبازی خود در شکم خاک**

**پاینده و جاوید بماند وطن ما**






آرامگاه
مرزبان شهید
مصیب محمدی کلاکور
فرزند محمد علی
ولادت ۱۲۸۵/۱۱/۴
که در سوم شهریور ماه ۱۳۲۰ در راه انجام وظیفه
با کمال رشادت در مقابل مهاجمین ایستادگی
و به درجه رفیع شهادت نائل آمد
آرامگاه
مرزبان شهید
فرزند میر جعفر
ولادت ۱۲۹۷/۲/۳
که در سوم شهریور ماه ۱۳۲۰ در راه انجام وظیفه
با کمال رشادت در مقابل مهاجمین ایستادگی
و به درجه رفیع شهادت نائل آمد
آرامگاه
مرزبان شهید
عبدالله شهریاری
فرزند حیدر
ولادت ۱۲۸۴/۵/۲۲
که در سوم شهریور ماه ۱۳۲۰ در راه انجام وظیفه
با کمال رشادت در مقابل مهاجمین ایستادگی
و به درجه رفیع شهادت نائل آمد



Şəhid Mirmuhəmmədе Rai Haşemi

Şəhrivər 1320



Şəhid Abdullah Şəhriyarinin fotosu Hacı Məhəmmədəli Şəhriyarinin əlində



علائم

قد

مو

چشم

رنگ

دماغ

علامت مخصوص

عکس مهر قسمت و حوزه نظام وظیفه بایه ممهور باشد

احضار ومرخصی درمرحله احتیاط

| تاریخ | شرح | | نظریه وامضای پزشک |
|---|---|---|---|

تاریخ شروع وخاتمه مراحل مختلفه سربازی